QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 134 (5606) 19 **iyul** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymıəti 40 qəpik**

# Azərbaycan və İtaliya strateji tərəfdaşdır

## *İlham Əliyev: "İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır"*



Səh 2

9

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ilin altı ayında görülmüş işlər müzakirə olunub**



7

**Yeni Azərbaycan Partiyasında müşavirə keçirilib**



16

**Zidan "Yuventus"un idman direktoru olacaq**



# Azərbaycan və İtaliya strateji tərəfdaşdır

## *İlham Əliyev: "İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır"*

***Azərbaycan Respublikasına rəsmi səfərə gələn İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iyulun 18-də rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda İtaliya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanı qarşıladı. İtaliya Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident Sercio Mattarellaya, İtaliya nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.***



Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi. Azərbaycan və İtaliya prezidentləri rəsmi foto çəkdirdilər.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı. İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu. Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin inkişafı ilə bağlı məsələlər müzakirə olunub. Geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. AZƏRTAC xəbər verir ki, "Azərbaycan Memarlıq və İnşaat Universiteti ilə İtaliyanın Milan Politexnik Universiteti arasında Anlaşma Memorandumu"nu Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Milan Politexnik Universitetinin dizayn üzrə departamentinin rəhbəri Silvia Piardi imzaladılar.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə İtaliya Dövlət Dəmir Yolları arasında Anlaşma Memorandumu"nu "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, İtaliya Dəmir Yolları Şirkətinin beynəlxalq inkişaf üzrə vitse-prezidenti Covanni Rokka imzaladılar. "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə İtaliya Respublikasının Səhiyyə Nazirliyi arasında baytarlıq təbabəti üzrə Texniki Anlaşma"nı Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari imzaladılar.

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə İtaliya Respublikasının Təhsil, Universitetlər və Tədqiqat Nazirliyi arasında ali təhsil üzrə əməkdaşlıq barədə Birgə Bəyannamə"ni Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə və İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxış edib.

Prezident İlham Əliyevin bəyanatı:

-Hörmətli cənab Prezident. Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Bu səfər İtaliya Prezidentinin Azərbaycana ilk səfəridir. Bu səfər tarixi bir səfərdir. İlk dəfədir ki, İtaliya Prezidenti Azərbaycana səfər edir. Mənim dəvətimi qəbul etdiyiniz üçün Sizə minnətdaram. Əminəm ki, səfər çox uğurlu keçəcək və İtaliya-Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcək. Bizim əlaqələrimiz çoxşaxəlidir, bir çox sahələri əhatə edir. Bu gün apardığımız danışıqlarda, keçirdiyimiz görüşlərdə bir çox məsələlər müzakirə edildi. Regional inkişaf və regional təhlükəsizlik məsələləri, Avropa İttifaqı-Azərbaycan əlaqələri, siyasi, iqtisadi ikitərəfli əlaqələrimiz - bir çox məsələlər müzakirə edildi və deyə bilərəm ki, bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür.

*"İtaliya şirkətləri üçün Azərbaycanda bütün qapılar açıqdır, biz onların səviyyəsini bilirik, onlar çox yüksək texnologiyaya malik olan şirkətlərdir"*



Ardı Səh. 3

# Azərbaycan və İtaliya strateji tərəfdaşdır

## *İlham Əliyev: "İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır"*

**Əvvəli-Səh-2**

İtaliya hazırda ATƏT-in sədridir. Biz ümid edirik və əminik ki, İtaliya ATƏT-in sədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində fəal rol oynayacaqdır. Mən cənab Prezidenti münaqişə ilə bağlı məlumatlandırdım, danışıqların hazırkı vəziyyəti ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim. Biz istəyirik ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə öz həllini tapsın. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayır. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz məhv edilmişdir. ATƏT işğal edilmiş bölgələrə iki dəfə faktaraşdırıcı missiya göndərmişdir. Bu missiyaların məruzələrində göstərilir ki, bütün tarixi abidələrimiz, infrastruktur obyektləri Ermənistan tərəfindən dağıdılıb. Münaqişənin həlli üçün hüquqi əsas var. BMT Təhlükəsizlik Şurası 25 il bundan əvvəl 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və bu qətnamələrin icrası təmin edilməlidir. Əfsuslar olsun ki, Ermənistan uzun illərdir bu qətnamələrə məhəl qoymur, öz işğalçı siyasətini davam etdirir və status-kvonu saxlamaq istəyir. Bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədr ölkələri prezidentlər səviyyəsində dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bu mövqeyi dəstəkləyirik və hesab edirik ki, tezliklə münaqişənin həlli üçün addımlar atılmalıdır, Ermənistanın işğalçı qüvvələri bizim tarixi torpaqlarımızdan çıxarılmalıdır.



## *"İtaliya həmişə Azərbaycanın inkişafı üçün onun yanında olacaq"*



Bir həftə bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlığın prioritetləri" sənədində də Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına bir daha Avropa İttifaqı tərəfindən dəstək göstərilmişdir. Bir gün ondan sonra NATO Zirvə görüşünün nəticəsində qəbul edilmiş Bəyannamədə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi dəstəklənib. Yəni, heç kəs üçün sirr deyil ki, Ermənistan bizim tarixi torpaqlarımızı qanunsuz yollarla zəbt edib və bu torpaqlardan çıxmalıdır. Ancaq bundan sonra bölgədə sülh, əməkdaşlıq ola bilər və ancaq bundan sonra Cənubi Qafqazda geniş miqyasda əməkdaşlıq aparıla bilər.

Bu gün biz Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri müzakirə etdik. İtaliyanın bu məsələlərlə bağlı çox müsbət rolu və mövqeyi var. Ümid edirəm ki, yaxın gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş imzalanacaq. Saziş üzərində iş aparılır və biz Avropa İttifaqına üzv ölkələrlə strateji tərəfdaşlıq bəyannamələri imzaladıq, qəbul etdik. Doqquz ölkə ilə, o cümlədən İtaliya ilə belə bəyannamələr qəbul edildi. 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə qəbul edilmişdir. Bu, çox ciddi siyasi sənəddir, əslində, bizim bir-birimizə olan münasibəti və gələcək əməkdaşlıq formatını göstərir və müəyyən edir.

O ki qaldı ikitərəfli əlaqələrə, qeyd etdiyim kimi, biz strateji tərəfdaşıq, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri bunun bariz nümunəsidir. İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır. Azərbaycan böyük həcmdə neftini İtaliya istiqamətinə göndərir, enerji sahəsində çox gözəl əməkdaşlıq var. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq dərinləşəcək. Azərbaycan tərəfdaş ölkələrlə birlikdə hazırda "Cənubi Qaz Dəhlizi" layihəsini uğurla icra edir. Bu, 40 milyard dollar dəyərində olan layihədir, onun böyük hissəsi icra edilib. Bu il Cənub Qaz Dəhlizinin rəsmi açılışı Bakıda olmuşdur. Onun böyük hissəsini təşkil edən TANAP layihəsinin Əskişəhər şəhərində açılışı olmuşdur. Yəni, bu istiqamətdə işlər uğurla gedir və bu, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayır.

İtaliya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Bu gün açılacaq polipropilen zavodunun inşasında İtaliya şirkəti fəal iştirak edib. Azərbaycanda bir çox İtaliya şirkətləri fəaliyyət göstərir. Biz bu gün bu məsələ ilə bağlı da danışdıq və mən Prezident Mattarellaya dedim ki, İtaliya şirkətləri üçün Azərbaycanda bütün qapılar açıqdır, biz onların səviyyəsini bilirik, onlar çox yüksək texnologiyaya malik olan şirkətlərdir. Azərbaycanda inşaat sektorunda, kənd təsərrüfatı sahəsində, ağır sənaye sahəsində bir çox layihələr icra ediblər və çox yüksək səviyyədə icra ediblər. Əlbəttə ki, keçirilən görüşlər və sabah iştirak edəcəyimiz İtaliya-Azərbaycan biznes forumu qarşımızda yeni imkanlar açacaq. Çünki Azərbaycanın sürətli iqtisadi-sənaye inkişafı tələb edir ki, yeni texnologiyalar gətirilsin. Əlbəttə ki, ilk növbədə, biz bu texnologiyaları dost ölkələrdən gətirmək, əldə etmək istərdik.

**Ardı Səh. 4**

# Azərbaycan və İtaliya strateji tərəfdaşdır

## İlham Əliyev: "İtaliya bizim üçün birinci ticarət tərəfdaşıdır"

Əvvəli-Səh-3

x x x

Daha sonra İtaliya Prezidenti Sercio Mattarella bəyanatla çıxış edib.

Prezident Sercio Mattarellanın bəyanatı

-Cənab Prezident.

Mənə və məni müşayiət edən nümayəndə heyətinə göstərilən diqqətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Eləcə də bu gün keçirdiyimiz təkbətək və geniş tərkibdə görüşlərə və orada deyilən sözlərə görə də Sizə bir daha təşəkkür edirəm.

Bildiyiniz kimi, mən İtaliyanın Azərbaycana səfər edən ilk Prezidentiyəm. Mən bundan çox böyük məmnunluq duyuram. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Azərbaycana gəlmişəm və dəvətə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Bu dəvət və bizim münasibətlərimiz ölkələrimiz arasında mükəmməl səviyyədə olan ikitərəfli əməkdaşlığımızın nəticəsidir. Bizim bu gün gündəliyimizdə olan məsələlər ikitərəfli münasibətlərimizi nəzərdə tutan bütün sahələri diqqətdə saxlayan məsələlərdir. Çünki İtaliya da Azərbaycanı özünün etibarlı tərəfdaşı hesab edir və xüsusilə də bu regionda əsas tərəfdaşı hesab edir. İtaliya qlobal səviyyədə də Azərbaycan ilə əməkdaşlığa əhəmiyyət verir. İtaliya Azərbaycanın dünyəviliyini və dini tolerantlığa olan hörmətini çox alqışlayır. Radikalizmdən doğan təhlükələrə qarşı Azərbaycanın gördüyü işləri İtaliya tərəfi dəstəkləyir.

Biz söhbətlərimiz zamanı eləcə də terrorizmə və qeyri-qanuni ticarət yollarına qarşı mübarizəyə dair də fikir mübadiləsi apardıq və eyni fikirdəyik. Bizim strateji və kommersiya sahəsində olan əməkdaşlığımız barədə də geniş fikir mübadiləsi apardıq. Bizim enerji sahəsi üzrə mükəmməl əməkdaşlığımızdan əlavə digər sahələr üzrə də əməkdaşlığımızın mümkünlüyündən və onların önəmindən danışdıq. İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyətindən danışdıq. Cənub Qaz Dəhlizində İtaliya tərəfinin və Azərbaycan tərəfinin səylərini qiymətləndirir və ümumi maraqlarda olan bu məsələlərin həll yolunu tapması üçün hər iki tərəfin çalışacağını bildiririk. Çünki Cənub Qaz Dəhlizi və eləcə də Xəzər dənizi regionu, Xəzər dənizinin qazı Avropa üçün çox önəmlidir. İtaliya Azərbaycanın öz iqtisadiyyatını şaxələndirməsinə çox böyük önəm verir və bunu alqışlayır. Biz ümid edirik ki, bu sahə üzrə və dostluq münasibətləri çərçivəsində İtaliya şirkətləri Azərbaycanda energetika sahəsindən başqa digər sahələrdə də öz fəaliyyətini qura bilər.

Bundan əlavə, biz müdafiə sahəsində şirkətlərimizin əməkdaşlığı barədə danışdıq. Çünki biz inanırıq ki, İtaliyanın bu sahədə əldə etdiyi texnologiyalar Azərbaycanın iqtisadiyyatına öz töhfəsini verə bilər. Bildiyiniz kimi, sabah Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə İtaliya-Azərbaycan biznes forumunda iştirak edəcəyik. Bu tədbirin mənim səfərim çərçivəsində keçirilməsi doğrudan da bizim əməkdaşlığımızın hərtərəfli olmasını və xüsusilə iqtisadiyyat sahəsinin Azərbaycan və İtaliya münasibətlərində nə qədər önəm kəsb etdiyini bir daha göstərir.

Bizim münasibətlərimiz siyasi, iqtisadi, energetika baxımından təbii ki, ən əhəmiyyətli rola malikdir. Lakin bundan əlavə, Azərbaycan ilə İtaliya arasında mədəniyyət sahəsində də əməkdaşlıq mövcuddur. Biz fikirləşirik ki, elmin və texnologiyanın hesabına hər iki dövlət arasında mədəniyyət sahəsində olan əməkdaşlığı inkişaf etdirə bilərik. Bu baxımdan qeyd etmək istəyirəm ki, mən Azərbaycanın önəmli universitetlərindən biri olan ADA Universitetində bu gün tələbələrin qarşısında çıxış edəcəyəm. Eləcə də İtaliya hökuməti tərəfindən verilən təqaüdlərin qalibi olan Azərbaycan tələbələrinə həmin təqaüdləri təqdim edəcəyəm.





Mən Milanda keçirilən "Ekspo" sərgisi zamanı Azərbaycan pavilyonunu bir daha xatırlatmaq istəyirəm. Çünki Azərbaycan pavilyonu öz möhtəşəmliyi ilə bütün ölkələrin diqqətini cəlb etmişdir. Bu xüsusda Heydər Əliyev Fonduna və onun prezidentinə həm bu pavilyonunun hazırlanmasına, həm də Romada restavrasiya işlərinin görülməsinə və digər tədbirlərin keçirilməsinə görə öz təşəkkürümü bildirirəm.

Mən düşünürəm ki, bizim gənc istedadlar arasında mübadilə aparmaqla da əməkdaşlığımıza əlavə töhfə verə bilərik. Bizim Azərbaycan ilə ikitərəfli və çoxşaxəli münasibətlərimiz bir az bundan öncə imzaladığımız sazişlərlə də bir daha özünü sübut edir. Mən demək istəyirəm ki, İtaliya tərəfi ATƏT-də sədrliyi çərçivəsində də Azərbaycana öz töhfəsini verəcəyini bir daha vurğulayır. İtaliya xüsusən regionda olan problemlərlə bağlı, həmçinin Azərbaycanın Dağlıq Qarabağ problemi ilə bağlı ATƏT-ə sədrlik çərçivəsində öz dəstəyini göstərəcək. Biz istəyirik ki, bu sahə üzrə danışıqların formatlarını dəyişmək əvəzinə, əksinə, regionda təhlükəsizliyi təmin edə biləcək yeni danışıq yolları tapılsın. Çünki bizim fikrimizcə, bu münaqişənin həlli hərbi yolla deyil, siyasi yolla baş verməlidir. Bu həll yolu sabit, uzunmüddətli və beynəlxalq hüquq çərçivəsində olmalıdır.

Bir daha əlavə etmək istərdim ki, İtaliya Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanacaq sazişlə bağlı danışıqlarda çox fəal rol oynayır. Hesab edirik ki, bizim ümumi marağımızda olan prioritet məsələlərin daha da inkişaf etdirilməsi Avropa İttifaqı-Azərbaycan əməkdaşlığı çərçivəsində İtaliya-Azərbaycan münasibətlərinə öz töhfəsini verəcək.

Cənab Prezident, mən, həmçinin Brüsseldə Qətiyyətli Dəstək sənədinin imzalanması ilə bağlı Sizi bir daha təbrik edirəm. Çünki mən hesab edirəm ki, bu, Azərbaycanın əldə etdiyi uğurlu bir nəticədir. Fikirləşirik ki, bu, daha da inkişaf edəcək. İtaliya NATO çərçivəsində əməkdaşlığına, xüsusən Əfqanıstanda göstərdiyi əməkdaşlığa görə Azərbaycana minnətdarlığını bildirir. Bildiyiniz kimi, İtaliya bu sahədə də öz xüsusi rolunu oynayır. Azərbaycan ilə İtaliya arasında mədəniyyət, iqtisadiyyat və siyasi sahələrdə əməkdaşlıq, eləcə də dostluq münasibətləri mövcuddur. İtaliya həmişə Azərbaycanın inkişafı üçün onun yanında olacaq.

# Sumqayıt Kimya Sənaye Parkında “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub

*Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella açılışda iştirak ediblər*

İyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella açılış mərasimində iştirak ediblər. Prezident İlham Əliyev və Prezident Sercio Mattarella tədbirdə çıxış etdilər. Prezident İlham Əliyev öz çıxışında diqqətə çatdırıb ki, İtaliyanın Prezidentinin bu mərasimdə iştirakı müəssisənin əhəmiyyətini daha da artırır. Eyni zamanda, bu müəssisənin yaradılması İtaliya-Azərbaycan dostluğunun təzahürüdür. Çünki bu böyük sənaye müəssisəsi beynəlxalq əməkdaşlıq nəticəsində yaranmışdır. İtaliya şirkəti “Maire Tecnimont” bütün inşaat işlərini yüksək səviyyədə aparmış və gözəl bir əsər yaratmışdır:

“Polipropilen zavodunun istifadəyə verilməsi və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsi nəticəsində Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq










və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaqdır.

Bizim iqtisadi sahədə və sənaye istehsalı sahəsində məqsədimiz məhz bundan ibarətdir. Biz bu zavodun timsalında Azərbaycanda son illər ərzində aparılan uğurlu iqtisadi və sənaye siyasətini görürük. Ən yüksək texnologiyalara malik olan zavod bu gün fəaliyyət göstərir. Zavodda yüzlərlə iş yeri yaradılır, daha dəqiq desəm, 500-dən çox yeni iş yeri yaradılacaqdır. İdxaldan asılılıq tamamilə aradan götürülür, gözəl ixrac imkanlarımız yaradılır. Kadr hazırlığı çox yüksək səviyyədə öz həllini tapmışdır. Azərbaycanın qeyri-neft sektorunun inkişafına zavodun çox böyük dəstəyi olacaqdır. Əminəm ki, zavodun fəaliyyəti nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri yaradılacaq. Çünki bu zavodda buraxılan xammaldan hazır məhsul istehsal olunacaq və Azərbaycan o məhsulun da idxalından asılılığı aradan götürəcək. Yəni, bu böyük sənaye müəssisəsinin timsalında biz siyasətimizi, aparılan işlərin nəticələrini görürük.

2015-ci ildə, - mən o günü yaxşı xatırlayıram, - zavodun təməli qoyulub və qısa müddət ərzində nəhəng sənaye müəssisəsi yaradılıb. Deyə bilərəm ki, Azərbaycanın müasir tarixində bu ölçüdə və bu səviyyədə sənaye müəssisəsi tikilməmişdir. Düzdür, bizim neftqaz sektorunda böyük inşaat işlərimiz həyata keçirilmişdir - böyük platformalar, qazma qurğuları, ancaq qeyri-neft sektorunda bu, ən böyük sənaye müəssisəsidir və ən son texnologiyalara malik olan müəssisədir.

Mən fürsətdən istifadə edərək italyalı tərəfdaşlarımıza bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, onlar bundan sonra da Azərbaycanda uğurla fəaliyyət göstərəcəklər və belə böyük sənaye müəssisələrinin yaradılması gələcəkdə də aparılacaq, çünki buna böyük ehtiyac var.

Azərbaycan öz sənaye potensialını müasirləşdirir, gücləndirir. Azərbaycanda sənayeləşmə siyasəti çox uğurla gedir. Bu ilin altı ayında qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir. Bu zavodun və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsindən sonra bizim sənaye potensialımız daha da artacaqdır.

Azərbaycanda çox gözəl sərmayə iqlimi vardır. Son 15 il ərzində Azərbaycana 250 milyard dollara yaxın sərmayə qoyulub və biz bu zavodun timsalında bunu görürük. Xarici banklar öz maliyyə dəstəyini göstərmişdir. Bu zavodun fəaliyyətində ən müasir xarici texnologiyalar tətbiq olunacaq. Bu zavodun tikintisini məşhur İtaliya şirkəti təmin edib. Bizim gələcək sənaye inkişafımızla bağlı planlarımız əminəm ki, həyata keçiriləcək. Bir çox yeni, ən yüksək texnologiyalara cavab verən sənaye müəssisələri yaradılacaqdır. Ona görə, İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün gələcəkdə də geniş meydan, geniş imkanlar olacaqdır.

Mən İtaliya Prezidenti cənab Sercio Mattarellanı bir daha salamlayıram. Qeyd etməliyəm ki, bu müəssisə Sumqayıt şəhərində yaradılır. Sumqayıt şəhərinə ilk dəfədir ki, aparıcı Avropa dövlətinin Prezidenti gəlir. Bu, Sumqayıtın tarixi üçün də çox əhəmiyyətli məsələdir. Sumqayıt indi müasir sənaye şəhəridir. Cənubi Qafqazda Bakıdan sonra ikinci sənaye şəhəridir. Sumqayıt sovet vaxtında kimya sənayesi şəhəri kimi yaradılmışdır. Sumqayıtın çox ciddi ekoloji problemləri var idi. Mən cənab Prezidentə bu barədə məlumat verdim.

**Ardı Səh. 6**

# Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub

*Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella açılışda iştirak ediblər*







**Əvvəli-Səh-5**

Ekoloji vəziyyət, havanın çirklənməsi insanları çox narahat edirdi. Bütün bunlara son qoyuldu. Bu gün müasir müstəqil Azərbaycanda ən yüksək ekoloji standartlar təmin edilir və Sumqayıt indi ekoloji inkişaf baxımından ölkəmizin ən qabaqcıl yerlərində qərarlaşıb. Bu zavodun sumqayıtlılar üçün də böyük əhəmiyyəti olacaq. Sumqayıtda yaradılacaq böyük sənaye klasterində minlərlə, on minlərlə insan işləyəcək və beləliklə, şəhərin inkişafı da uğurla gedəcək."

x x x

Prezident Sercio Mattarella çıxışında qeyd edib ki, bu cür tədbirlər İtaliya ilə Azərbaycan arasındakı münasibətlərin çox yüksək səviyyədə olduğunu göstərir. Bu, eləcə də dövlətlər və xalqlar arasında dostluğun və səmimiyyətin bir işarəsidir:

"Cənab Prezidentin dediyi kimi, sabah Azərbaycan-İtaliya biznes forumu keçiriləcək. Biz ümid edirik ki, bu forum çərçivəsində yeni münasibətlərin əsaslarını qoya biləcəyik. Mən SOCAR-a və "Maire Tecnimont"a təşəkkürümü bildirirəm. Biz bu gün bu zavodun nə dərəcədə yüksək texnologiyaya malik olduğunu görürük. Təbiidir, biz burada görürük ki, texniki imkanlarından əlavə müəssisənin infrastruktur kimi dizaynı da çox gözəldir. Bu, çox əhəmiyyətli bir layihədir. Çünki ölkənin sənaye imkanlarını yüksək əlavə dəyər baxımından möhkəmləndirir. Həmçinin təbii ki, Azərbaycan ilə İtaliya arasında əməkdaşlığın nə dərəcədə yüksək potensiala malik olduğunu bir daha göstərir.

Bu gün səhər Prezidentlə görüşüm zamanı xarici işlər nazirlərimizin və bizi müşayiət edən nümayəndə heyətinin iştirakı ilə ölkələrimiz arasındakı ikitərəfli məhsuldar əməkdaşlıq barədə danışdıq. Bu gün bizim burada olmağımız və əlbəttə, bütün nümayəndə heyətlərinin - İtaliya şirkətlərinin və onların tərəfdaşlarının burada olması bu tədbirin yüksək səviyyəsini göstərir. Təbii ki, biz Sumqayıt şəhərini də qeyd etməliyik. Çünki o, öz potensialı ilə bu tədbirin əhəmiyyətini xüsusi olaraq nümayiş etdirir. Təşəkkür edirəm."

x x x

Daha sonra SOCAR-ın prezidenti Rövnəq Abdullayev və "Maire Tecnimont" şirkətinin prezidenti Fabrizio di Amato çıxış ediblər. Vurğulanıb ki, "SOCAR-Polymer" zavodunun inşası ölkəmizdə ilk dəfə layihə maliyyələşdirilməsi çərçivəsində həyata keçirilib.

Bu layihə hesabına "SOCAR Polymer" Azərbaycanda ilk dəfə olaraq polipropilen və polietilen istehsal edəcək. Bu, nəinki neft kimyası sahəsində, digər sahələrdə də əməkdaşlığın başlanğıcıdır. Bu zavodun tikintisində istifadə olunan texnologiyalar İtaliyanın ən müasir texnologiyalarına aid edilir. Bu zavod iqtisadiyyatın inkişafında və Azərbaycanın sənayesində böyük rol oynayacaq. Çünki bu zavod təbii ehtiyatlardan istifadə hesabına fəaliyyət göstərəcək. Bu layihə, Azərbaycan hökuməti və eləcə də cəmiyyəti üçün mühüm mexanizmlərdən birini təşkil edir.

X X X

Sonra "SOCAR Polymer" şirkətinin fəaliyyəti və burada həyata keçirilən layihələrdən bəhs edən qısa film nümayiş olundu. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Prezidenti Sercio Mattarella polipropilen zavodunu işə saldılar.

Zavodda görülən işlərlə tanışlıq zamanı bildirildi ki, "SOCAR Polymer" layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. "SOCAR Polymer" şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə ən yüksək standartlara və müasir texnologiyalara əsaslanan "SOCAR Polymer" zavodlarının təməli qoyulub və artıq polipropilen zavodu istismara tam hazırdır. Yüksəksıxlıqlı polietilen istehsal edəcək zavodda isə son tamamlama işləri görülür. Hazırda ölkəmiz aşağısıxlıqlı polietileni ixrac, yüksəksıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır.

"SOCAR Polymer" zavodları ildə 19 növ olmaqla 184 min ton polipropilen və 12 növ olmaqla 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. Bu məhsullar sahibkarlıq subyektlərinin xammalla təchiz olunmasında əhəmiyyətli rol oynayacaq, respublikanın ixrac potensialının möhkəmlənməsinə əlavə stimul verəcək. İstehsal edilən məhsulun nəql intensivliyi gündə təqribən 60 yük maşını təşkil edəcək.

İlkin qiymətləndirmələrə görə, "SOCAR Polymer" zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 19 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 15 faiz artıracaq. İstismar müddətində zavodda 500 nəfər daimi iş yeri ilə təmin olunacaq.




## Rəsmi xronika

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 12 mart tarixli 106 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 384 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Yeni Azərbaycan Partiyasında müşavirə keçirilib

***İyulun 18-də Yeni Azərbaycan Partiyası (YAP) rayon və şəhər təşkilatları sədrlərinin iştirakı ilə ümumrespublika müşavirəsi keçirilib. Bu barədə AZƏRTAC-a YAP-ın mətbuat xidmətindən məlumat verilib. Müşavirədə çıxış edən Baş nazirin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, bu gün Azərbaycan sürətlə inkişaf edir, yeniləşir, müasirləşir.***



O, Azərbaycanın dünyada mövqelərinin daha da möhkəmləndiyini diqqətə çatdırıb: "Azərbaycan regionun lideri adını şərəflə daşıyır, bir sıra beynəlxalq layihələri uğurla həyata keçirir və eləcə də böyük layihələrin təşəbbüskarı qismində çıxış edir. Bütün bunların hamısı beynəlxalq miqyasda ölkəmizin rolunu və əhəmiyyətini ciddi şəkildə artırır. Bütün bunlarla yanaşı, Azərbaycanın gələcəklə bağlı böyük planları var".

Aprelin 11-də Azərbaycanda prezident seçkilərinin keçirildiyini xatırladan Əli Əhmədov seçkilərdə İlham Əliyevin seçicilərin mütləq əksəriyyətinin dəstəyi ilə parlaq qələbə qazandığını diqqətə çatdırıb. O, qarşıdakı 7 il ərzində də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük nailiyyətlər qazanacağına əminliyini ifadə edib.

Bir neçə gün öncə Gəncə şəhərində baş verən təxribatlar barədə danışan Əli Əhmədov vurğulayıb ki, iyulun 3-də və 10-da Gəncədə baş verən hadisələr Azərbaycan dövlətçiliyinə və cəmiyyətinə qarşı törədilmiş məkrli təxribat nümunəsidir. Azərbaycan xalqı bu təxribatın cavabını layiqincə verdi, onu, necə deyərlər, yerindəcə boğdu. Ümumiyyətlə, indiyə qədər də Azərbaycana qarşı müxtəlif təxribatlar törədilib, lakin iflasa uğrayıb. Gəncədə baş verən təxribatın fərqli cəhəti onun din pərdəsi altında həyata keçirilməsidir.

Əli Əhmədov vurğulayıb ki, xalqımız öz milli mənəvi dəyərlərimizə daim hörmətlə yanaşıb. "Azərbaycanda heç vaxt dini radikalizm olmayıb, amma vaxtilə siyasi radikalizmin ölkəyə necə ziyan gətirdiyinin şahidi olmuşuq. Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə ölkəmizdə siyasi radikalizmə də son verilib və sabit inkişafın əsası qoyulub", - deyən Baş nazirin müavini qeyd edib ki, Azərbaycandakı inkişafın da əsasını ölkədəki sabitlik təşkil edir. Əli Əhmədov milli mənəvi dəyərlərin kontekstində dinin rolu, cəmiyyət, dövlət və din münasibətləri, ölkəmizdə islami dəyərlərə göstərilən qayğıdan ətraflı danışıb. Bildirib ki, Prezident İlham Əliyevin diqqəti sayəsində Azərbaycandakı bütün dini-tarixi abidələr bərpa olunub və yeniləri inşa edilir. Din və müasirlik mövzusuna toxunan Baş nazirin müavini bildirib ki, Azərbaycan cəmiyyəti müasir olmaqla yanaşı, öz dəyərlərinə sadiqdir və gənclərimiz müasir dünyanın tələb və çağırışlarını yaxşı dərk edir.

"Azərbaycanda sabitlik, əmin-amanlıq və dinclik hökm sürür. Bu, cəmiyyətimizin reallığıdır və dünya tərəfindən də etiraf olunur. Təbii ki, bu faktorlar Azərbaycanı sevməyən qüvvələrdə qıcıq yaradır. Bütün bunlar həmin qüvvələr tərəfindən məkrli niyyətlərin meydana gəlməsinə səbəb olur və ölkəmizə qarşı təxribatlar hazırlayırlar. Gəncə hadisələri də bunun bariz nümunəsidir", - deyə YAP sədrinin müavini vurğulayıb.



Prezident Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxışında bildirib ki, din amilindən sui-istifadə edən ekstremist qüvvələr ənənəvi milli mənəvi dəyərlərimizə sadiq qalan dindarların dəstəyini qazana bilmədilər, əksinə, onların qınağına tuş gəldilər. Çünki dövlət-din münasibətlərinin möhkəm təməllər üzərində qurulduğu ölkəmizdə dindarlara daim dövlət tərəfindən diqqət və qayğı göstərilir. Buna Gəncə şəhərində yaşayan dindarlar da şahiddir. Prezident İlham Əliyevin göstərişi ilə Gəncədəki "İmamzadə" ziyarətgah kompleksinin yenidən qurulması, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə Şah Abbas Cümə və Həzrət Zeynəb məscidlərinin təmir və bərpa olunması, ibadət yerlərinin pulsuz təbii qazla təmin edilməsi, dini icmalara maliyyə yardımının göstərilməsi deyilənlərə əyani sübutdur. Hazırda Gəncə şəhərində təyinatı üzrə altı məscid və bir ziyarətgah kompleksi fəaliyyət göstərir. Həmin ibadət yerlərinə Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi din xadimləri təyin edilib və onlara Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu vasitəsilə maddi dəstək verilir. Dövlətimizin gördüyü bu işləri həqiqi və saf dini dəyərləri yaşayan dindarlarımız yüksək səviyyədə qiymətləndirir, Azərbaycan hökumətinin həyata keçirdiyi tolerant və multikultural siyasəti dəstəkləyirlər.

Gəncə şəhərində baş verən hadisələrə toxunan Etibar Nəcəfov qeyd edib ki, özlərini din təəssübkeşləri kimi təqdim edən ekstremist qüvvələr öz çirkin əməllərini həyata keçirərkən cəmiyyətin bütün təbəqələrinin, o cümlədən dini və etnik konfessiyaların nümayəndələrinin etirazı ilə üzləşdilər. Onların dini etiqad azadlığı uğrunda mübarizə apardıqları iddiası gerçəkliyə uyğun deyil. Azərbaycanda dini etiqad azadlığının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla aparılan multikulturalizm siyasəti vasitəsilə təmin olunur. Məlum olduğu kimi, bu siyasət azərbaycançılığın tərkib hissəsi kimi cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasətdir. Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasının əsas göstəricilərindən biri ölkə vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsidir. Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin olunması demokratik inkişaf yolu seçib, yaratdığı multikultural mühitlə və tolerantlığı ilə dünya ölkələri arasında seçilən Azərbaycan Respublikasının daxili siyasətinin prioritet istiqamətlərindən biridir. Azərbaycan dövləti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşır. Ölkə vətəndaşlarının dini etiqad azadlığı Azərbaycan Respublikası Konstitusiyasına, "Dini etiqad azadlığı haqqında" Qanuna və digər normativ hüquqi aktlara əsaslanır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini Mübariz Qurbanlı çıxış edərək Azərbaycandakı dövlət-din modelindən danışıb. Qeyd edib ki, bu modelin əsas müddəaları və prinsipləri Ulu Öndərin müəllifi olduğu və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq maddələrində öz əksini tapıb. Azərbaycan hüquqi, dünyəvi, demokratik ölkədir və Azərbaycan dövləti milli mənəvi dəyərlərə, İslam dini ilə yanaşı, digər konfessiyalara da çox böyük diqqət və qayğı göstərir. Məhz buna görə də Azərbaycanın tolerantlıq və multikulturalizm ənənələri həm İslam ölkələri, həm də bütün dünya tərəfindən nümunə olaraq öyrənilməkdədir. Bu gün Azərbaycanda bütün məzhəblər arasında münasibətlərin yüksək səviyyədə olması, vəhdət namazlarının qılınması, məscidlərdə möminlərin öz ibadətlərini sərbəst şəkildə yerinə yetirməsi üçün hərtərəfli şərait yaradılıb və bütün bu tədbirlər onu göstərir ki, ölkəmizdə dini sahədə böyük bir sabitlik var. M.Qurbanlı bildirib ki, həm iyulun 3-də, həm də iyulun 10-da Gəncədə cinayət hadisələrini törədənin və bu ssenarini hazırlayanların əsas məqsədi həmin cinayətlər vasitəsilə Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, Gəncəbasar bölgəsində öz cinayətlərini daha böyük əraziyə yaymağa cəhd göstərmək və ölkəmizin müstəqilliyinə zərbə vurmaq olub. Lakin həmin ssenarini həyata keçirmək istəyənlər, eyni zamanda, onun icraçıları tam iflasa uğradılar. Prezident İlham Əliyev baş vermiş hadisələrlə əlaqədar hüquq-mühafizə orqanlarının rəhbərləri ilə keçirdiyi müşavirədə bu hadisələrin tam siyasi-hüquqi qiymətini verib.

Mübariz Qurbanlı əlavə edib ki, tarixən Azərbaycanda dinlər, məzhəblər və təriqətlər arasında heç zaman qarşıdurma olmayıb. Ona görə də Azərbaycanda hər hansı ekstremist qüvvələrin dini istiqamətdə təxribatlar törədərək dövlət müstəqilliyimizə, eyni zamanda, dini sahədəki inkişafımıza təhlükə yaratmasına imkan verilməməlidir. İmamların məscidlərdəki dini moizələri daha çox islami dəyərlərin qorunmasına, təbliğinə yönəlməli, dini mövzuda ədəbiyyatların, yeni-yeni əsərlərin yazılması, yayılması, bu mövzuda media resurslarında kütləvi təbliğat və təşviqat işlərinin aparılması işləri genişləndirilməlidir. Müşavirəyə yekun vuran Ə.Əhmədov YAP-ın yerli strukturlarının rəhbərlərinə müvafiq tövsiyə və tapşırıqlar verib.

# DSX rəisi hərbçini şücaətinə görə təltif edib





***Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən qəzetimizə verilən məlumata istinadən, iyunun 21-də Dövlət Sərhəd Xidmətinin sərhəd qoşunlarının Göytəpə sərhəd dəstəsinin xidməti ərazisində dövlət sərhədinin pozulmasının qarşısını alarkən, silahlı sərhəd pozucuları ilə atışmada baş çavuş Kurupov Ramazan Məmməd oğlu çoxsaylı güllə yaraları almış və təcili əməliyyat olunaraq, həyatı xilas edilmişdir.***

Dövlət Sərhəd Xidmətinin hərbi hospitalının həkimlərinin ciddi səyləri və peşəkarlığı nəticəsində, baş çavuş R.Kurupovun sağlamlığı qısa müddət ərzində bərpa edilmişdir və hazırda onun tibbi reabilitasiya prosedurlarına cəlb edilməsi planlaşdırılır. Müalicə tədbirləri yekunlaşdıqdan sonra, baş çavuş R.Kurupovun Silahlı Qüvvələrin ehtiyatına buraxılması nəzərdə tutulmuşdur.

İyulun 17-də Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev baş çavuş R.Kurupovla görüşmüş və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalını ona təqdim etmişdir.

Görüş zamanı general-polkovnik Elçin Quliyev öz həyatını təhlükə altına qoyaraq, dövlət sərhədinin pozulmasına imkan vermədiyinə görə, baş çavuş R.Kurupova minnətdarlığını bildirmiş və onun şücaətinin hər bir Azərbaycan sərhədçisi üçün nümunə olduğunu qeyd etmişdir.

**ZÜMRÜD**

# Bəhruz Quliyev: "Azərbaycanda jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün bütün imkanlar yaradılıb"

***Müstəqil Azərbaycan demokratik inkişaf yolu seçən ölkə kimi mətbuatın dövlət və cəmiyyət həyatındakı roluna mühüm önəm verməklə onun müstəqilləşməsi, habelə mövcud problemlərinin həlli istiqamətində davamlı tədbirlər həyata keçirir.***

Bu fikri AZƏRTAC-a açıqlamasında "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev deyib. B.Quliyev bildirib ki, əldə edilən nailiyyətlər təsadüfi deyil. Ölkəmizin dünya informasiya məkanına daxil olması və informasiyalı cəmiyyətə keçid şəxsiyyətin, cəmiyyətin və dövlətin informasiyaya olan tələbatının daha dolğun ödənilməsinə, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşməsinə və müasir dövrün tələblərinə uyğunlaşmasına ehtiyac yaradır. Dövrün tələblərinə uyğun olaraq bu ehtiyacı hiss edən Prezident İlham Əliyevin kütləvi informasiya vasitələri ilə dövlət qurumları arasında səmərəli əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin və jurnalistlərin peşəkarlığının artırılması, vətəndaş cəmiyyəti quruculuğu prosesində onların rolunun gücləndirilməsi məqsədilə mühüm tədbirlər həyata keçirdiyini deyən B.Quliyev vurğulayıb ki, bu gün ölkədə söz və mətbuat azadlığı üçün heç bir maneə və təhlükə yoxdur, jurnalistlər istədikləri mövzunu açıq şəkildə cəmiyyətin diqqətinə çatdıra bilirlər. Azərbaycanda internet və sosial media azadlığı ən yüksək həddə inkişaf edib. Dövlətimizin başçısı son 15 ildə respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyət göstərməsi, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün bütün zəruri imkanlar yaradıb.



Azərbaycanda hazırda 200-dən çox qəzetin, 100-ə yaxın jurnalın, 50-dən çox televiziya və radio kanalının, onlarla mətbuat yayımı şirkətinin və jurnalist təşkilatının fəaliyyət göstərdiyini xatırladan Bəhruz Quliyev, həmçinin qeyd edib ki, internetin sürətli inkişafı çoxsaylı informasiya resurslarının yaranmasına səbəb olub, ölkə əhalisi arasında internet yayımı 80 faizi keçir, sosial şəbəkə istifadəçilərinin sayı iki milyondan çoxdur.

Müsahibimiz bildirib ki, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na uyğun olaraq milli mətbuatın müstəqilliyinin dəstəklənməsi, redaksiyalara yardım mexanizminin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi, cəmiyyət və mətbuat arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artırılması, sosial təminatının yaxşılaşdırılması və əməyinin qiymətləndirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Baş redaktor əlavə edib ki, müasir dövrdə ölkə mediasının üzərinə mühüm vəzifələr düşür. İlk növbədə, mətbuatda peşəkarlıq əsas normalardan birinə çevrilməli, KİV-də milli maraqların qorunması hər bir jurnalist üçün vacib mənəvi məsələ olmalıdır. Yeni mərhələnin siyasi reallıqları mətbuatın cəmiyyətdə təkcə rolunu deyil, həm də sosial öhdəliklərini, məsuliyyətini artırır. Bu gün ictimaiyyət ölkənin taleyüklü məsələlərinə münasibətdə mətbuat nümayəndələrindən əsl vətəndaş mövqeyi, milli təəssübkeşlik nümunəsi tələb edir. Buna görə də peşə etikası ilə yanaşı, milli təəssübkeşlik, taleyüklü problemlərə vətəndaş yanaşması Azərbaycan mediasının keyfiyyət göstəricisi olmalıdır.

## Arzu Nağıyev: "İtaliya ilə Azərbaycan arasında yaxınlaşma var"



"Son vaxtlar İtaliya ilə Azərbaycan arasından həm iqtisadi, həm siyasi cəhətdən yaxınlaşma var". Bu fikirləri SİA-ya siyasi şərhçi Arzu Nağıyev İtaliya prezidenti Sercio Matarellanın ölkəmizə səfərini şərh edərkən deyib. O bildirib ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rola malik olması ölkəmizin İtaliya ilə iqtisadi cəhətdən yaxınlaşmağımızı labüd edir.

İki ölkə arasında mədəniyyət əlaqələrinin olduğunu deyən A.Nağıyev söyləyib ki, Azərbaycanın mədəni irslərə hörmətlə yanaşması nəticəsində ölkəmiz İtaliyada mədəni cəhətdən bir sıra abidələrin və strukturların inkişafında bir sıra rola malikdir. Siyasi şərhçi qeyd edib ki, iki ölkə arasında iqtisadi cəhətdən inkişaf olduqda, bu inkişaf siyasətə də öz təsirini göstərir: "İtaliyanın ATƏT-ə sədrlik etməsi Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət dəstəyini verə bilər. Bildiyiniz kimi bundan öncə Bolqarıstan ATƏT-ə sədrlik edirdi və bu müddət ərazində onların Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini arzu etdikləri hiss olunurdu".

A.Nağıyev söyləyib ki, İtaliya rezidentinin Azərbaycana səfəri ATƏT-in Minsk qrupu həmsədrləri tərəfindən nəzərə alınacaq: "Əgər bir ölkəyə prezident səviyyəsində səfər olunursa, bu müəyyən təsir dairəsinə malik ola bilər. İtaliya Prezidentinin Azərbaycana səfəri həm siyasi, həm iqtisadi, həm də ərazi bütövlüyümüzün tanınması baxımından çox mühüm əhəmiyyət kəsb edən səfərdir".

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ilin altı ayında görülmüş işlər müzakirə olunub

***İyulun 18-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində cari ilin 6 ayının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. Bu barədə AZƏRTAC-a komitədən məlumat verilib.***



Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı toplantını açaraq Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasa diqqəti cəlb edib. Ötən 6 ay ərzində ölkəmizdə qarşıda duran bütün vəzifələrin uğurla icra edildiyini deyən Dövlət Komitəsinin sədri Azərbaycanın iqtisadi və beynəlxalq siyasət sahələrində uğurlar əldə etdiyini vurğulayıb. Bu ilin dövlət başçısı tərəfindən ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini diqqətə çatdıran Mübariz Qurbanlı bu münasibətlə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini icmaların üzvləri arasında məqalə müsabiqəsi və tədbirlərin keçirildiyini, eləcə də "Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət-din münasibətləri" mövzusunda kitabın nəşr edildiyini bildirib. Mübariz Qurbanlı hesabat dövründə dini durumun öyrənilməsi, dini icmaların fəaliyyətinə nəzarətin gücləndirilməsi, radikal cərəyan və təriqətlərin fəaliyyətinin aşkarlanması, dini obyektlərin tikintisi barədə məlumatların yenilənməsi, dini təhsil müəssisələrinin fəaliyyətinin araşdırılması və əlamətdar dini mərasimlərlə bağlı tədbirlər görüldüyünü bildirib. Qeyd edib ki, din adı ilə milli və dövlət maraqlarımıza zidd, milli mənəvi dəyərlərimizə yad ideoloji təlimlərin yayılmasına qarşı mümkün vasitələrlə mübarizə davam etdirilib, bu istiqamətdə Qafqaz Müsəlmanları İdarəsi, hüquq mühafizə orqanları, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və digər qurumlarla birlikdə maarifləndirici, profilaktik və inzibati tədbirlər həyata keçirilib. Komitə sədri milli mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə hər zaman yüksək qiymət və dəstək göstərən Prezident İlham Əliyevin müvafiq Fərman və Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasını, eyni zamanda, Dövlət Komitəsinə olan yüksək etimadın göstəricisi kimi dəyərləndirib. Sözügedən qurumların ölkəmizdə yüksək dini-mənəvi mühitin qorunub saxlanması və inkişaf etdirilməsi istiqamətində fəaliyyətə başladıqlarını bildirib.

Daha sonra Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov hesabat məruzəsi ilə çıxış edib. Sədr müavini komitə tərəfindən respublikada dini durumu dərindən öyrənmək, dini prosesləri izləmək, əsas tendensiyaları müəyyənləşdirmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək istiqamətində keçirilən müvafiq tədbirlər barədə danışıb. Gündüz İsmayılov son hesablamalara görə, ölkə ərazisində 2248 məscidin olduğunu, bunlardan 211-nin Naxçıvan Muxtar Respublikasının payına düşdüyünü qeyd edib. O, 778 məscidin dini icmasının Dövlət Komitəsində qeydiyyatdan keçdiyini bildirib. Hesabat dövründə dini qurumların dövlət qeydiyyatına alınması ilə bağlı 60 müraciətin (57 İslam, 3 qeyri-islam təmayüllü) daxil olduğu, 7 dini qurumun sənədləri qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarıldığı, ümumilikdə 16 dini icmanın (13 İslam, 3 qeyri-islam təmayüllü) dövlət qeydiyyatına alındığı diqqətə çatdırılıb. Cari ildə Dövlət Komitəsi tərəfindən Ramazan ayı ilə bağlı həyata keçirilən ardıcıl tədbirlər barədə də danışan sədr müavini ay boyunca dini durumun nəzarətdə saxlanıldığını, məscid və ziyarətgahlarda mütəmadi monitorinqlərin aparıldığını, bütün dini icmaların QMİ-nin rəsmi dini təqviminə uyğun fəaliyyət göstərməsinin mütəmadi diqqət mərkəzində saxlanıldığını deyib. Gündüz İsmayılov ölkədə dini duruma mənfi təsir göstərə biləcək zərərli dini təyinatlı ədəbiyyatın aşkarlanması, siyahısının hazırlanması və təkmilləşdirilməsi sahəsində işin davam etdirildiyini, idxalla bağlı 2018-ci ilin yanvar-iyun ayları ərzində Dövlət Komitəsinə daxil olan müraciətlər əsasında 483 adda dini məzmunlu ədəbiyyatdan dini dözümsüzlüyü, ayrı-seçkiliyi və radikallığı təbliğ edən 19 adda kitabın ölkəyə idxalının və yayılmasının qarşısının alındığını bildirib. Əlavə edib ki, ölkədə nəşr olunmaq məqsədilə təqdim edilmiş 104 adda dini ədəbiyyatın 22-sinin çapı məqsədəuyğun sayılmayıb. 171 adda (253010 ədəd) dini təyinatlı ədəbiyyata yapışdırılması üçün nəzarət markaları verilib. Hüquq-mühafizə orqanları tərəfindən müsadirə olunaraq Dövlət Komitəsinə göndərilən 224 adda dini təyinatlı ədəbiyyat və məmulat materiallarından 56-sının zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və istehsal edildiyi müəyyən edilib. Sədr müavini Dövlət Komitəsinin ötən müddət ərzində hüquq-mühafizə orqanları ilə birgə qeyri-ənənəvi dini cərəyan mənsublarının qanunsuz fəaliyyətlərinə, eləcə də ixtisaslaşmış satış məntəqələrindən kənarda dini ədəbiyyat nümunələrinin satışının həyata keçirilməsinə qarşı inzibati tədbirləri intensiv şəkildə davam etdirdiyini deyib. Əlavə edib ki, imzalanmış tədbirlər planları çərçivəsində Dövlət Komitəsinin Müdafiə Nazirliyi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə birgə onlarla tədbir həyata keçirilib. Sədr müavini, həmçinin Azərbaycanda tolerantlıq ənənələri, dözümlülük, dinc birgəyaşayış mədəniyyətinin beynəlxalq aləmdə təbliği, eləcə də dini ekstremizm və terrorizm kimi bəşəriyyəti narahat edən problemlərdən birgə çıxış yolları axtarmaq məqsədilə keçirilən beynəlxalq tədbirlər barədə də danışıb. Ölkəmizin tolerantlıq və multikultural dəyərlərinin ölkə xaricində təbliğ edilməsi məqsədilə "Müsəlman Dünyası Bu Gün" (Muslim World Today) adlı internet platformasında, eyni zamanda "Yerusəlim Post", Pakistanın "Morning Mail" kimi nüfuzlu onlayn qəzetlərində yazı və məqalələrlə çıxışlar edildiyini vurğulayıb.



Daha sonra məruzəsi dinlənilən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fondun mənəvi dəyərlərin təbliği işinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlərdən söz açıb. Diqqətə çatdırıb ki, Azərbaycan Respublikası Prezidentinin 27 mart 2018-ci il tarixli Sərəncamı ilə Fonda ayrılan vəsait hesabına ölkəmizdə mənəvi dəyərləri təbliğ edən şəxslər qismində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən rəsmi olaraq təyinat alıb, ümumi sayı 1068 nəfər olan imam, imam müavini və mütəvəllilərə maddi dəstək göstərilir. Mənəvi dəyərləri təbliğ etmək məqsədilə Fond tərəfindən Ramazan ayında Azərbaycanın bir sıra şəhər və rayonlarında Azərbaycanın azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş şəxslərin ailə üzvlərinin və müharibə veteranlarının iştirakı ilə 13 iftar süfrəsi təşkil olunub. Bununla yanaşı, Ramazan bayramı ərəfəsində Fond tərəfindən Azərbaycanın müxtəlif regionlarından ümumilikdə 66 şəhid ailəsinə ərzaq yardımı edilib. Fondun tərkibində Mənəvi Dəyərlərin Təbliği üzrə Məşvərətçi Komitənin yaradıldığını bildirən icraçı direktor mənəvi dəyərlərin və Azərbaycançılıq məfkurəsinin təbliği ilə bağlı maarifləndirici tədbirlərin, müxtəlif fond və mərkəzlərlə birgə seminar, konfrans və xeyriyyəçilik fəaliyyətinin təşkili, kitab nəşri, eyni zamanda, mənəvi dəyərlərlə bağlı televiziya kanallarında və radiolarda veriliş və sosial çarxların verilməsi istiqamətində işlərin davam etdirildiyini deyib.

DQİDK-nın Gəncə bölgəsi üzrə şöbəsinin müdiri Asif Əliyev çıxışında Gəncə şəhərində dini durumun tam sabit olduğunu, vətəndaşlara dini ayinləri sərbəst şəkildə icra etmələri üçün lazımi şərait yaradıldığını deyib. Bildirib ki, dindarlar dövlət tərəfindən onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirir və dövlətçilik prinsiplərinə həmişə olduğu kimi indi də sədaqət nümayiş etdirirlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək ölkəmizin konfessiyalararası və məzhəblərarası münasibətlər baxımından nümunəvi mühitə malik olduğunu bildirib. Qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün geniş imkanların yaradılması hakimiyyətin milli mənəvi dəyərlərimizə olan yüksək münasibətin bariz nümunəsidir.

Etibar Nəcəfov dini maarifləndirmə, İslam və qeyri-islam dini icmaları ilə iş, qanunvericiliyin təkmilləşdirilməsi, dini sahə ilə bağlı qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq qurumların ölkəmizdəki dini durumla bağlı hesabatlarına diqqətin artırılması və digər məsələlərlə bağlı fikirlərini bildirib və müvafiq tövsiyələr verib. Dini maarifləndirmə sahəsində Dövlət Komitəsinin dəstəyi ilə yayımlanan televiziya verilişlərinin əhəmiyyətini yüksək qiymətləndirərək bu istiqamətdə tədbirlərin davam etdirilməsinin vacibliyini vurğulayıb. Dövlət-din münasibətlərinin tənzimlənməsi, dövlətin nəzarət tədbirlərinin artırılması, eləcə də fəaliyyətdə çevikliyin təmin olunması üçün qanunvericilik bazasında düzəliş və əlavələrin edilməsinin zəruriliyini diqqətə çatdırıb. Sonda Dövlət Komitəsinin 2018-ci ilin növbəti 6 ayı üçün fəaliyyət planı və qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib. Qarşıdan gələn Məhərrəm ayı ilə bağlı müvafiq işlərin görülməsi barədə Dövlət Komitəsinin bölgə şöbələrinə müvafiq tapşırıqlar verilib.

# Milli Mətbuatın 143 illiyi ərəfəsində Nəsimi rayonunda jurnalistlərlə görüş keçirilib

***Nəsimi rayon icra hakimiyyətində Milli Mətbuatın 143 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu, TV, qəzet və elektron informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə tədbir-görüş keçirilibdir.***

Görüşü giriş sözü ilə açan Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov bildirib ki, 143 illiyini qeyd etdiyimiz Azərbaycan Milli Mətbuatı böyük və şərəfli inkişaf yolu keçmiş, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olmuşdur. Mətbuatımız mütərəqqi ənənələri formalaşdıraraq, cəmiyyət qarşısında üzərinə götürdüyü missiyanı layiqincə yerinə yetiribdir.





Rayon icra hakimiyyəti tərəfindən kütləvi informasiya vasitələri ilə sıx və məhsuldar əlaqələrə hər zaman mühüm əhəmiyyət verildiyini qeyd edən A.Əsgərov onu da vurğulayıb ki, Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maarifinlənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynayıbdır: "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondun yaradılması da Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən, buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir. Nəsimi rayon icra hakimiyyəti Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu ilə daima sıx əməkdaşlıq edir.

Görüşdə Azərrbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli çıxış edərək, Azərbaycan dövlətinin KİV-in fəaliyyətinə daim dəstək verdiyini vurğulayıb: "Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın ilk milli qəzeti olan "Əkinçi" qəzetinin birinci nömrəsinin çapdan çıxdığı gün - 22 iyul Azərbaycan Milli Mətbuat Günü elan edilmişdir. Müstəqilliyin əldə edilməsindən sonra informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirmişdir. Artıq Azərbaycan mətbuatı həm kəmiyyət, həm də keyfiyyət baxımından, region ölkələrini qabaqlayır. Ölkəmizdə Mətbuat Şurası yaradılıb və "Mətbuat haqqında" Qanun qəbul edilmişdir. Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Bu Fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, onların rasionallığının artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətlərini müəyyən edib. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin 2009-cu ilin martında imzaladığı Sərəncamla Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən, buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir".

Fondun icraçı direktoru mətbuat işçilərinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə mətbuat işçiləri adından minnətdarlığını bildiribdir.

Tədbirdə çıxış edən millət vəkili, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu Milli Mətbuatımızın zəngin və şərəfli yol keçdiyini, Azərbaycanın müstəqillik əldə etdikdən sonra mətbuat sahəsində əldə olunan uğurlarından danışdı.

Tədbirin sonunda Milli Mətbuat Günü münasibətilə KİV nümayəndələrinə Nəsimi rayon icra hakimiyyəti tərəfindən hədiyyələr təqdim olunub.

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsi təmin ediləcək

Dilimizi qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur və hər kəs bu işdə məsuliyyətli olmalıdır. Azərbaycan dili milli müstəqilliyin, suverenliyin, istiqlalın və Azərbaycan ideologiyasının əsaslarından biri olduğundan, varlığımızı sübut edən bu məfhum müasir günümüzə qədər təkmilləşərək, xalqa təqdim olunub. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış və üzləşdiyi problemlərlə qarşılaşmışdır. Xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı və daim qayğı ilə əhatə etməlidir. Azərbaycan dili bu gün planetimizin 70-dək ölkəsində yaşayıb-yaradan 60 milyonluq xalqın dili kimi formalaşıb. Ölkədə dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməklə, həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cü ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir" - deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. 1978-ci ildə SSRİ rəhbərliyi milli dəyərlərə, dilə birmənalı yanaşınadığı halda, Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. Bu, dilimizə qarşı olan tələbkarlıq idi. Həmin illərdə Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb.




Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu, cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə müvafiq qanun qəbul olunması ilə nəticələndi. Azərbaycan Respublikası Prezidentinin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərmanları, "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı", eləcə də, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu və dil siyasəti sahəsində digər normativ-hüquqi aktlar, həmçinin tədbirlər Azərbaycanda dilçilik sahəsinin hüquqi əsaslarını və icra mexanizmini müəyyən etmişdir.

Bu sahəyə aid digər sərəncamlar ölkəmizdə dil siyasəti və dil quruculuğunun mükəmməl konsepsiyasını, onun uzunmüddətli strategiyasını və aydın proqramını verən tarixi qanunvericilik aktlarıdır. Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dilimizə, mədəniyyətimizə daim böyük diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü dil siyasəti Azərbaycan dilini inkişafına töhfələrini verir. Prezident İlham Əliyev tərəfindən bir-birinin ardınca imzalanan "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında", eləcə də, "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" sərəncamları Azərbaycan dilinin inkişafı istiqamətində növbəti addımlar oldu.

Bu gün Azərbaycan dilinin istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılıb. Eyni zamanda, elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir. Belə bir zamanda dövlət başçısının 17 iyul 2018-ci il tarixli "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı dilə olan qayğının daha bir təzahürüdür. Sənədə əsasən, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Respublikasında "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqinə, həyata keçirilməsi mexanizmlərinə və icra müddətinə dair təkliflərini iki ay müddətində hazırlayıb, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edəcək. Bu Sərəncam 2018-ci il avqustun 1-dən qüvvəyə minir. Sərəncamın 1-ci hissəsinə əsasən, təqdim olunacaq təkliflər beynəlxalq təcrübə, habelə Azərbaycan Respublikası qanunvericiliyinin və onun tətbiqi təcrübəsinin təhlili əsasında dəyərləndiriləcək. "Əcnəbilər üçün Azərbaycan dilinin elektron platforması" layihəsinin tətbiqinin məqsədəuyğunluğu barədə, habelə həmin layihənin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitinə, maliyyələşmə mənbələrinə, icra mexanizmlərinə dair təklifləri və layihənin tətbiqindən gözlənilən nəticələr barədə proqnozları 2018-ci il dekabrın 1-dən gec olmayaraq, Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək.

Sərəncam müstəqil dövlətçiliyimizin əsas atributlarından biri olan Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin, bu dillə maraqlanan şəxslər üçün əlçatarlığının təmin edilməsi və öyrənilməsinin asanlaşdırılması məqsədi daşıyır. Bu gün ölkəmizdə yüzlərlə əcnəbi təhsil alır və belə bir zamanda ölkəmizi əcnəbi tələbələrə daha yaxından tanıtmaq, onların Azərbaycan cəmiyyətinə inteqrasiyasını asanlaşdırmaq məqsədi ilə tədbirlər həyata keçirilir. Dövlət başçısının imzaladığı Sərəncam əcnəbilərin ölkəmizlə mənəvi bağlarını daha da möhkəmlətmək, o cümlədən, ölkəmizdə təhsil alan xarici ölkə vətəndaşlarının Azərbaycan dilini öyrənməsinə geniş imkanlar yaradır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Oğuz rayon təşkilatının yaranmasının 25-ci ildönümü qeyd olunub



Yeni Azərbaycan Partiyasının Oğuz rayon təşkilatının yaranmasının 25 illik yubileyi münasibətilə geniş tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov tədbir iştirakçılarını rayon təşkilatının yaranmasının 25 illiyi münasibətilə təbrik edərək, onun tarixindən, inkişaf mərhələsindən, ölkənin ictimai-siyasi həyatındakı müstəsna rolundan danışıb. O bildirib ki, Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycan tarixinin mühüm səhifələrindən və məqamlarından biridir: "Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə mövcud durum, həqiqətən çox mürəkkəb idi. Azərbaycan dövləti süqutun astanasında idi, müstəqilliyi şübhə altına düşmüşdü. Belə bir məqamda, YAP-ın təsis olunması Azərbaycanın xilasına doğru atılmış ilk addım oldu. Ona görə də, hesab edirəm ki, YAP-ın təsis olunması və Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında ziyalılarımızın bir araya gəlməsi çox mürəkkəb durumda olan dövlətimizin gələcəyi baxımından da mühüm hadisə idi. Mən partiyamızın yaradılmasını Ulu Öndər Heydər Əliyevin siyasi qüdrətinə inanan geniş xalq kütləsinin, ziyalı hərəkatının mübarizəsinin yekunu, Azərbaycanın həqiqi müstəqilliyinin isə təməlinin atılması kimi qiymətləndirərdim. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti Möhtərəm İlham Əliyevin respublikamızın müstəqilliyinin qorunması, iqtisadiyyatın inkişafı, əhalinin rifah halının yaxşılaşdırılması ilə bağlı həyata keçirdiyi çevik siyasəti vətəndaşlar tərəfindən məmnunluqla qarşılanır".

Yığıncaqda YAP Oğuz rayon təşkilatının veteranı Xalid Babayev partiyanın yaranma tarixinə nəzər salaraq, bildirib ki, 1992-ci ildə Naxçıvan Muxtar Respublikasında keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransından sonra respublikanın ən ucqar rayon və kəndlərində belə bu xəbəri eşidən sadə əmək adamları və bütün ziyalılar bunu ruh yüksəkliyi ilə qarşılayırdılar. Xalqa, vətənə və dövlətçiliyə xidmət edən YAP Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmiş, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafa böyük töhfələr verib.

Yığıncaqda YAP Oğuz rayon təşkilatının idarə heyətinin üzvü Azad Əliyev çıxış edərək bildirib ki, o vaxtkı AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə bu işi təşkil etmək çətin idi: "Lakin vətənpərvər ziyalılarımız heç bir hədə-qorxudan çəkinməyərək, bu şərəfli işin məsuliyyətini öz üzərlərinə götürdülər və YAP-ın ideyalarının xalq arasında yayılmasında çox gərgin əmək sərf ediblər. Az bir vaxtda Ulu Öndər Heydər Əliyevə məhəbbətləri olan oğuzlular bu sıraya qoşuldular. O zamankı iqtidarın təzyiqlərinə məruz qalmalarına baxmayaraq, 1993-cü ilin iyul ayının 17-də 155 nəfər təəssübkeşin iştirakı ilə rayon təşkilatının təsis konfransı keçirildi".

Çıxışlardan sonra tədbir iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə müraciət qəbul olunub.

**ZÜMRÜD BAYRAMOVA**

# Ünvanlı sosial yardımın alınması proseduru sadələşdirilir



Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi və şəffaflaşdırılması işləri çərçivəsində sosial yardımın alınması üçün aztəminatlı ailələr tərəfindən elektron qaydada müraciət proseduru sadələşdiriləcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, bu il aprelin 30-da yaradılmış müvafiq İşçi Qrupu tərəfindən bu istiqamətdə işlər aparılmaqla, aztəminatlı ailələrin sosial yardım proqramına daha rahat və asan müraciət imkanlarına şərait yaradılması əsas hədəflərdən biri kimi nəzərdə tutulub. İlkin mərhələdə, sosial yardımın alınması üçün elektron qaydada müraciət zamanı "Ərizə-bəyannamə"nin doldurulması üçün tələb olunan məlumatların sayının azaldılmaqla sadələşdirilməsi təmin ediləcək. Belə ki, tələb olunan məlumatların bir hissəsi (məsələn, ailənin gəlirləri tərkibinə daxil olan pensiya və müavinətlər barədə məlumatlar) aidiyyəti elektron informasiya bazalarından əldə olunacaq.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə bütün benefisiarlar haqqında məlumatların vahid elektron bazada toplanmasını nəzərdə tutan "Sosial Reyestr"in hazırlanması isə e-müraciətin daha da sadələşdirilməsinə imkan yaradacaq. Layihə işə salındıqdan sonra ünvanlı dövlət sosial yardımın alınması üçün elektron müraciət zamanı hər hansı "Ərizə-bəyannamə"nin doldurulmasına ümumiyyətlə ehtiyac qalmayacaq. Ailəni təmsil edən şəxs yalnız FİN nömrəsini daxil etdikdə, həmin ailənin sosial yardım almaq hüquqlarına baxılması üçün tələb olunan bütün zəruri məlumatlar "Sosial Reyestr"dən götürüləcək və yardım təyin olunub-olunmamasına dair avtomatlaşdırılmış mühitdə qərar qəbul ediləcək.

# "İbtidai siniflər üzrə ixtisaslı kadrlara ehtiyac var"



"Müəllimlərin işə qəbulu üzrə müsabiqəyə çıxarılan vakant yerlərin sayı təxminən 7 minə yaxındır". SİA-nın xəbərinə görə, bunu təhsil nazirinin müavini, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdirinin vəzifəsini müvəqqəti icra edən Məhəbbət Vəliyeva jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, daha çox rus bölməsində bütün fənlər və ibtidai siniflər üzrə ixtisaslı kadrlara ehtiyac var. Müəllimlərin işə qəbulu ilə bağlı 50 mindən artıq şəxsin müraciət etdiyini deyən nazir müavini söyləyib ki, müraciət edənlərdən 46 839 namizədin elektron ərizəsi təsdiq edilib və onlar müsabiqədə iştirak etmək hüququ qazanıb.

M. Vəliyevanın sözlərinə görə, namizədlərə ixtisaslarına uyğun olaraq ümumtəhsil məktəblərinin fənn proqramının məzmunu üzrə 40, metodika, təlim strategiyaları üzrə 10 və məntiq üzrə 10 sual olmaqla, ümumilikdə 60 sualı cavablandırmaq üçün 90 dəqiqə vaxt verilib:" Müəllimlər komputer vasitəsilə cavablandırdıqları sualların nəticələrini 90 dəqiqənin tamamında özləri də görür. İyulun 16-dan başlayaraq hər gün təxminən 4 min nəfərə yaxın namizədin test imtahan mərhələsində iştirak edir. Test imtahan mərhələsindən uğurla keçən namizədlər müsahibə mərhələsinə dəvət olunacaqlar".

# Ermənilərin Panik kəndi panikada

*Rusiyanın Gümrüdəki 102-ci hərbi bazası kəndi güclü atəşə tutub*



İyunun 17-də Gümrüdə dislokasiya olunmuş Rusiyanın 102-ci hərbi bazasının hərbçiləri texnika və canlı qüvvə ilə Artik bölgəsinin Panik kəndinə daxil olaraq, orada atəş açıb, qumbara atıb və s. hərbi hazırlıq əməliyyatları keçiriblər. Olayla bağlı "lragir.am" saytı yazıb. Saytın yazdığına görə, kəndin sakinləri hərbi kolonun ətrafına yığışaraq, hərbi komandanlığa suallar veriblər ki, rus əsgərləri azaraq, kəndin ərazisinə daxil olublar, yoxsa bu, təxribatdır və s.? Lakin komandir heç bir suala cavab verməyərək, hərbi hazırlıq əməliyyatının davam etdirilməsi əmrini verib.

### Ermənilərin anti-Rusiya tələbləri 102-ci bazanın ölkədən çıxarılmasına hesablanıb?



Digər erməni sayt və portalları da bənzər fikirlərlə çıxış edərək, hətta rusların erməni kəndlərini ələ keçirmək planları olduğunu yazıblar. Hətta iddia olunub ki, 102-ci bazanın hərbçiləri, bir neçə il öncə, erməni ailəsini qətlə yetirən Premyakovun yeni sxemi üzrə hərəkətə keçiblər.

"Bütün hallarda, bu, növbəti təxribatdır"-deyə yazan erməni mediası Rusiyaya məxsus hərbi bazadakı problemlərin hələ də həll edilmədiyini qeyd edir. O da, iddia olunur ki, ruslar zaman-zaman bu kimi davranışları ilə ermənilərə nəyisə xatırlatmağa çalışırlar. Bununla da, hərbi bazanın Ermənistandan çıxarılması məsələsinə cüzi də olsa toxunulur: "Baza haqqındakı məsələni daha dəqiq qoymaq lazımdır - ya qarşıya qoyulmuş məsələlər icra edilməli, ya da baza Ermənistandan çıxarılmalıdır. Bu, dünyada yegane hərbi bazadır ki, onu qəbul edən ölkə maliyyələşdirir. Bazada baş verənlərə görə isə, birmənalı olaraq, Rusiya məsuliyyət daşıyır".

### Rusiya Ermənistana "səni işğal edərəm" mesajını verib



Nəticə isə budur ki, Ermənistanda son vaxtlar anti-Rusiya meyilləri artmaqdadır və bu ölkə rusların forpostu rolunu oynamaqla yanaşı, həm də vassalıdır. Uzun illər Rusiyanın hərbi yardımları ilə zor-bəla ilə ayaqda qalan Ermənistan indi daha çətin vəziyyətə düşüb. Söz yox ki, ən adi analiz aparsaq belə, ümumi nəticəyə gələ bilərik ki, əslində, Rusiyanın 102-ci bazası ermənilərin həyasızlığına qarşı azca güc nümayiş etdirməklə - Panik kəndinin ərazisinə daxil olaraq, hərbi hazırlıq əməliyyatları adı altında əhalini panikaya salıb. Bununla, işarə edib ki, ermənilər çox da atılıb-düşməsinlər. Əks halda, hərbi hazırlıq əməliyyatları real hərbi əməliyyatlarla əvəz olunar, hətta Ermənistan Rusiyanın işğalına məruz qala bilər. Görünən isə budur ki, baş verən Gümrü hadisələri, xüsusilə, sonuncu olay, məhz həmin istiqamətdə inkişaf edir. Daha doğrusu, Rusiya Ermənistana "səni işğal edərəm" mesajını verib.

**Rövşən NURƏDDİNOĞLU**

# NATO sammitində Ermənistanın uğursuzluğu

## Paşinyan eyforiyasının sonu

***Bu gün Ermənistanda vəziyyət daha gərgin hal alıb. Səbəb isə, Ermənistanın baş naziri Nikol Paşinyanın Brüssel sammitindən əliboş qayıtmasıdır. Artıq erməni xalqı bu səfər zamanı N.Paşinyanın küçə adamı kimi heç bir real, konkret və demokratik fikir irəli sürmədiyinin bir daha şahidi oldu. Onun mülahizələri radikal küçə zorbaçısının fikirlərindən elə də fərqlənmir. Analitiklər indiyə qədər N.Paşinyanın elə bir fikrini nümunə gətirə bilmirlər ki, demokratiyaya, müasirliyə və səmərəli əməkdaşlığa səslənsin. Əksinə, onun artıq Rusiya kimi böyük bir dövlətin başçısını qıcıqlandırmağa başladığından bəhs edirlər. Praktiki olaraq, Ermənistanın xarici siyasətində Qərb tərəf addım atdığını təsdiq edən bircə fakt belə yoxdur. Olması da gözlənilən deyil. Çünki Moskva dərhal öz "erməni çocuğu"nun qulağını dartar.***



### NATO Paşinyanı cəzalandırdı - Azərbaycanın müharibə hüququnu tanıdı

Politolqlar NATO sammitində Ermənistanın bu uğursuzluğunu Paşinyanın komandasının təcrübəsizliyi ilə izah etməklə bildiriblər. Xüsusilə də, Qarabağ münaqişəsinin ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində həll edilməsinin vacib sayılması məsələsini.

Ermənistan politoloqu Stepan Safaryan sözügedən məsələyə münasibət bildirərək vurğulayıb ki, NATO bir növ Paşinyanı əməlli-başlı cəzalandırdı: "NATO-nun Brüssel sammitinin yekun sənədində postsovet məkanında yaranmış bütün münaqişələrlə birlikdə Qarabağ münaqişəsinin ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində həll edilməsinin vacib sayılması Ermənistan üçün təhlükəlidir".

Stepan Safaryan onu da qeyd edib ki, bizimlə bağlı məsələlərdə əvvəlki və sonuncu NATO sammitləri arasında böyük fərq yoxdur: "Əvvəlki NATO sənədlərindən də Ukrayna, Gürcüstan və Molodova ilə yanaşı, Azərbaycanın ərazi bütövlüyü tanınırdı, amma orada xüsusi vurğulanırdı ki, Qarabağ münaqişəsi ATƏT-in Minsk Qrupu çərçivəsində nizamlanır, yəni Azərbaycanın müharibə hüququ arxa plana keçirilirdi. Mən bilmirəm erməni tərəfi hansı səyləri göstərib ki, bu cür ümumiləşmə baş verməsin".

Erməni politoloqu onu da bildirib ki, Azərbaycan Qarabağda öz ərazi bütövlüyünü təmin etmək məqsədi ilə hərbi əməliyyatlara başlamaq üçün istifadə edə bilər. O, NATO sammitində Ermənistanın bu uğursuzluğunu Paşinyanın komandasının təcrübəsizliyi ilə izah edib: "Əslində, bütün gözləntilərə baxmayaraq, NATO Ermənistana qarşı mövqeyini, məhz Nikol Paşinyanın səbəbsiz addımlarına görə sərtləşdirib. Nikol Paşinyan parlament müxalifətinin başçısı olaraq həmişə Ermənistanın Rusiyanın təsir zonasından Avrasiya İttifaqından və KTMT blokundan çıxmasını tələb edirdi. Məhz bu şüarlarla o, Ermənistan inqilabının başçısına çevrildi və yüz minlərlə insanı meydanlara Rusiya əleyhinə şüarlarla çıxardı. Amma hakimiyyəti ələ keçirdikdən sonra Rusiyanın qucağında sələfi Serj Sarkisyandan da möhkəm oturmağa başladı. Bu gün də Paşinyanın xarici siyasətdə səbatsızlığı müşahidə edilməkdədir.

Göründüyü kimi, politoloqların sözlərinə görə, pafosla Rusiya ilə strateji əlaqələrdən hansı məntiqlə bəhs edirdilərsə, indi eyni hay-küy və absurdluqla Avropa İttifaqı və NATO ilə əməkdaşlığın inkişaf perspektivlərindən dəm vururlar. Hər iki halda ermənilərin arqumentləşdirmə məntiqi sünidir. Elə bir tutarlı fakt ortaya çıxara bilmirlər ki, insanlar ona uyğun olaraq desinlər ki, Ermənistan-Aİ əməkdaşlığı yüksələn xətlə inkişaf etməlidir, yaxud Ermənistan-NATO əlaqələrinin dərinləşməsi üçün zəruri şərait mövcuddur. Politoloqların sözlərinə görə, fakt və əsaslandırma yoxdur, əvəzində, pafos və bədnam din eyniliyi, mədəniyyət oxşarlığı haqqında şovinist iddialar mövcuddur.

Qəribəsi də odur ki, Paşinyan kimi səbatsızlar elə zənn edir ki, NATO-nun sərt şəkildə Azərbaycana öz ərazi bütövlüyünü təmin etmək üçün hərbi əməliyyatlara başlamasına qadağa qoymasını tələb etməsi, sən demə, Ermənistana qarşı müharibə demək imiş.

Ancaq Ermənistan vətəndaşları Nikol Paşinyanın səmərəli bir addım atacağına ümidlərini kəsiblər. Çünki Paşinyan elə bir tutarlı fakt ortaya çıxara bilmir ki, insanlar ona uyğun olaraq desinlər ki, Ermənistan-Aİ əməkdaşlığı yüksələn xətlə inkişaf etməlidir, yaxud Ermənistan-NATO əlaqələrinin dərinləşməsi üçün zəruri şərait mövcuddur.

Beləliklə, Ermənistan ictimai şüurunda Nikol Paşinyan eyforiyası səngiyir. Cəmiyyət tədricən reallıqda nə baş verdiyinin fərqinə varmağa çalışır. Bu da təsadüfi deyil və tənəzzül prosesi yalnız bununla məhdudlaşmır. Bütövlükdə, Ermənistanın idarəetmə fəlsəfəsi iflasa uğrayır.

**A.SƏMƏDOVA**

# Mərkəz sədri: "ATƏT MQ Ermənistanda dördüncü liderlə işləyir"

***"ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistanla daha konkret gündəliklə işləməlidir". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***



Onun sözlərinə görə, ATƏT MQ həmsədrləri Brüsseldə Azərbaycan və Ermənistan Xİ nazirləri ilə 4 saatlıq görüşünün təşkilatçısı və iştirakçısı oldular: "Bu vaxtadək həmsədrlər ayrı-ayrılıqda Azərbaycan və Ermənistan Xİ nazirləri ilə də görüşmüşdülər. Beləliklə həmsədrlərin görüşü üçün ayırdığı vaxtının optimal miqdarının 5,5 saat olduğunu demək olar. Həmsədrlərlə Xİ nazirləri və Xİ nazirlərinin bir-biri ilə ünsiyyətdə dil problemi yoxdur. Beləliklə, həmsədrlərin ağır, tər tökən işi göz qabağındadır. Amma hələlik nəticə yoxdur. Ən azı Ermənistan tərəfinin açıqlamalarından bu aydın görünür. Z.Mnasakanyanın fikrincə, 4 saat ona E.Məmmmədyarovla tanış olmaq üçün sərf olunub. N.Paşinyan ümumiyyətlə "demokratik fontan" vurdu. Guya həmsədrlər görüş zamanı Ermənistanda keçiriləcək Frankofoniya sammitində iştirak etməyi müzakirə və xahiş ediblər.

Niyə Azərbaycanı deyil, Ermənistanı deyirik. Çünki Azərbaycanın ATƏT MQ-yə və tənzimlənməyə konseptual və cari yanaşmasında heç bir dəyişiklik baş verməyib. Ermənistan tərəfdə isə dəyişikliklər boldur:

I. Konstitusiya dəyişilib. Yeni konstitusiyaya görə dövlətin başçısı prezident, icra hakimiyyətinin başçısı baş nazirdir. Xarici siyasət məsələlərini də baş nazir müəyyən etməlidir. Azərbaycan konstitusiyasına görə Prezident həm dövlətin, həm icra hakimiyyətinin başçısıdır və xarici siyasəti də o müəyyənləşdirir.

II. Ermənistanda inqilab baş verdi. Zorakı yolla N.Paşinyan hakimiyyəti ələ keçirdi. N.Paşinyan Ermənistanın lideri olaraq Dağlıq Qarabağ tənzimlənməsində fərqli mövqe, şərt ortalığa qoyur. Onun şərtinin qəbul edilməməsi bəllidir. Amma N.Paşinyan geri çəkilmir.

III. Ermənistanda konstitusiya və dövlət idarəçiliyinin dəyişdirilməsi məqsədyönlü idi. Hədəf Ermənistanın Dağlıq Qarabağ tənzimlənməsindəki mövqeyində qeyri-müəyyənlik yaratmaq idi. Bu planın müəllifi S.Sərkisyan hakimiyyətdə qalsaydı haçansa o da süni baş nazir dəyişikliyinə gedəcəkdi. Məqsəd real tənzimlənmədən yayınmaq idi. Ehtimal ki, hadisələrin belə gedişi həmsədrlərə də bəlli idi. Ona görə həmsədrlər N.Paşinyanın növbəti addımlarına köklənməməlidir. Bunu dejavyu kimi qəbul etməlidir.

Həmsədrlərin Brüssel görüşündən sonra yaydığı bəyanatda "məzmunlu danışıqlarda təkrar iştirak üçün növbəti addımlar və parametrlər barəsində fikir mübadiləsinin aparıldığı, etimadın möhkəmləndirilməsi üçün bir sıra mümkün tədbirlərə baxdıqlarını" bildirdilər. Həmsədrlərin bəyanatından Azərbaycan və Ermənistan liderlərinin görüşünün hazırlanmasının aktiv müzakirə mövzusu olduğu aydın görünür. Əsas məsələ Ermənistanı kimin təmsil edəcəyidir. N.Paşinyan statusuna görə Azərbaycan Prezidenti İlham Əliyevin tayı deyil. Parametrlər dedikdə, bu problemi həll etmək nəzərdə tutulur.

"Bəzi mümkün etimad tədbirləri" adı altında Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının dialoqunun başlanmasının nəzərdə tutulduğunu ehtimal etmək olar. Amma Ermənistanın indiki rəhbərliyinin davranışı həmsədrlərin diplomatik ifadələrinin anlamaq gücündə olmadığını ortalığa qoydu.

ATƏT MQ Ermənistanda dördüncü liderlə işləyir. Əvvəlki 3 prezidentlə indiki baş nazirin Dağlıq Qarabağ tənzimlənməsinə yanaşmaları arasında fərqin olub-olmadığını yaxşı bilirlər. Bu, artıq ATƏT MQ həmsədrlərinin daha konkret gündəliklə işləməsini imperativə çevirir. Əks-təqdirdə həmsədrlər təkcə özlərini deyil, mənsub olduqları dövlətlərin imicinə xələl gətirəcəklər.

**Ceyhun Rasimoğlu**

# Əli Kərimli İlqar Məmmədovun azadlığa çıxmasından qorxur

*"REAL" AXCP-ni məhv etmək qərarındadır*



AXCP ilə "REAL" arasında növbəti qarşıdurmalar yaşanmaqdadır. Təkcə son bir neçə ayda başlayan qalmaqallar və sosial şəbəkə söz-söhbətləri bu və ya digər tərzdə tərəflərin qarşılıqlı ittihamları ilə daha da böyüyüb. Onsuz da, soyuq münasibətləri olan cəbhəçilərlə realçıların dava-dalaşlarına səbəb isə Ə.Kərimlinin İlqar Məmmədovu həzm etməməsi, eləcə də, İ.Məmmədovun azadlığa çıxacağı halda, Kərimlini, siyasi opponenti olaraq, məhv etmək təhlükəsinin mövcudluğudur. O da məlumdur ki, hər iki tərəf daim bir-birlərini günahlandırmaqla özlərini ətrafları qarşısında, necə deyərlər, təmizə çıxarmağa çalışıblar.

### İlqar Məmmədov həbsdə ola-ola Əli Kərimlini necə üstələmişdi?

Misal üçün, xatırlatmaq olar ki, bir müddət əvvəl sosial şəbəkələrdə Ə.Kərimli ilə "REAL"-ın sədri İ.Məmmədova virtual səsvermə kampaniyası başladılmışdı və bu kampaniyada İ.Məmmədov Ə.Kərimlini xeyli üstələmişdi. Bunun ardınca AXCP və "REAL" qruplarının bir-birlərini ən ağır ittihamlara məruz qoymaları, onsuz da, gərgin olan vəziyyəti daha da gərginləşdirdi. Bütün bunlardan sonra daha çox simasızlıq təsiri bağışlayan Ə.Kərimlinin "REAL"-ı "Milli Şura"nın mitinqlərinə dəvət etməsi qətiyyən səmimiyyət təsiri göstərə bilməzdi. Məsələ, həm də ondadır ki, tərəflər daim bir-birlərini hakimiyyətə işləməkdə günahlandırmaqla, necə deyərlər, vəziyyətdən çıxmağa çalışıblar. Burada da məqsəd özlərini daha çox müxalifətçi kimi göstərmək olub. Məsələn, Ə.Kərimli virtual səsvermə zamanı uduzduğunun fərqinə vardıqdan sonra heç bir sübuta və əsasa söykənməyən belə bir dırnaqarası fərziyyə irəli sürmüşdü ki, guya hakimiyyət İ.Məmmədovun virtual səs yığmasında müəyyən yardımlar göstərib.

### "REAL"-ın da müxalifətdə söz sahibi olmaq imkanları indidən zəif görünməkdədir

Ancaq bunun belə olmadığını elə "REAL"-ın icraçı katibi Natiq Cəfərli bu arqumentlərlə rədd etmişdi: "Yəni onlar çox bəsit ritorikadan istifadə ediblər. Bu dəfə də, belə iddiaların səslənməsi, açığı, "REAL"-ın və İ.Məmmədovun nüfuzuna kölgə salmaq məqsədi daşıyırdı". N.Cəfərli İ.Məmmədovun həbsdə olduğunu əsas gətirərək, əlavə edib ki, Ə.Kərimlinin ittihamı absurddur: "Təəssüf ki, yenidən qarşı tərəfin aqressiyası, səviyyəsiz və aşağılayıcı sözləri ilə üzbəüz qaldıq".

Göründüyü kimi, bütün müstəvilərdə "əqidədaşlarına" kəskin fərqlə uduzan Əli Kərimli özünü təmizə çıxarmaq üçün ağlına nə gəlirsə, dilinə də gətirir. Lakin özü də yaxşı bilir ki, xalq heç bir zaman nə Əli Kərimliyə, nə də digər dağıdıcı müxalifət nümayəndələrinə inanmır. O cümlədən, "REAL"-ın da müxalifətdə söz sahibi olmaq imkanları indidən zəif görünməkdədir. Bu kimi amillər isə, hər iki təşkilatın qarşıdurmasını daha da gücləndirəcək.

**RÖVŞƏN**

# Erməni olmaq üçün erməni kimi dünyaya gəlməyə ehtiyac yoxdur

*Bu xislətdə olan Leyla Yunusu qəbir də düzəltməz*



Belə bir məsəl var ki, erməni olmaq üçün heç də erməni kimi dünyaya gəlməyə ehtiyac yoxdur. Yəni insan gördüyü mənfur işlərlə, dağıdıcı əməlləriylə və xəyanətkarlığıyla da ermənilərə bənzəyə bilər. Fakt budur ki, xalq arasında "Sülh və Demokratiya İnstitutu"nun direktoru, Leyla Yunus həm əməlləri ilə, həm də ermənilərlə yaxın qohumluğu səbəbiylə bir çoxları tərəfindən bu adla anılır. Xüsusilə, ölkədə hansısa bir hadisə olursa, L.Yunusun səsi gəlir. Elə buna görə də, ictimaiyyət, birmənalı şəkildə, L.Yunusu erməni təfəkkürü ilə hərəkət edən, ölkəmizə qarşı, məhz ermənilərə xas yanaşma tərzi ortaya qoyan bir "hüquq müdafiəçisi" kimi tanıyır, onu bu cür qiymətləndirir. Həmkarları da onu "qəddar", "isterikaçı" və "Azərbaycanın düşməni" adlandırırlar.

Bu yerdə bəzi xatırlatmalara müraciət etmək istərdim. Belə ki, "hüquq müdafiəçisi" Novella Cəfəroğlu L.Yunus barədə danışarkən kəskin fikirlər səsləndirərək, demişdi ki, "Sülh və Demokratiya İnstutu"nun direktoru Avropa Şurası baş katibinin müavini Qabriella Battaini-Draqoni və Avropa Şurasının siyasi məsələlər üzrə direktorluğunun başçısı Aleksandr Gesselə keçirilən görüşdə özünü kobud apararaq, artistizm nümayiş etdirib: "Görüşdə iştirak edən "Sülh və Demoktariya İnstitutu"nun rəhbəri L.Yunus digər iştirakçıların sözünü kəsərək, onların çıxışlarına kobudcasına müdaxilə edirdi. Beləliklə də, bizim qonaqlarla apardığımız söhbət onun isterik qışqırıqları ilə müşayiət olunurdu. L.Yunusun özünüreklam məqsədilə verdiyi informasiyadan da aydın görünürdü ki, o özünü cilovlamağı lazım bilmirdi. "Mən özümü saxlaya bilmədim...", "Mən qışqırığa keçirəm...", "Mən, sadəcə, qışqırıram... Mən müdaxilə edirəm..." və sair bu kimi digər ifadələr onun şəxsiyyətindəki ciddi çatışmazlıqları ortaya qoyur. Təbii ki, yaranmış belə bir mühitdə sivil qaydada diskussiya aparmazlar". N.Cəfəroğlunun sözlərinə görə, görüşdən sonra Yunus görüş haqqında "stenoqram" adı altında yanlış və alayarımçıq informasiyanı kütləvi informasiya vasitələrinə, xüsusilə, "Azadlıq" qəzetinə yayaraq, cəmiyyətdə çaxnaşma yaratmağa çalışıb. "Azərbaycan İnsan Hüquqları Mərkəzi"nin direktoru Eldar Zeynalov və "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev də L.Yunusun çox zaman isterik davranışlara yol verdiyini bildirirlər. Onlar, belə hesab edirlər ki, əgər bir adam ölkəsinin milli maraqlarını düşmənə belə satmağa hazırdırsa, ondan daha pis əməlləri də gözləmək olar.

### Leyla Yunusu qəbir də düzəldə bilməz

Sürətlə dəyişmək, cilddən-cildə girmək kimi erməni xüsusiyyətləri Leyla Yunusda kifayət qədər var. Bu, o L.Yunusdur ki, Azərbaycan dilini yalnız söyüş vasitəsi kimi görərək, "bu dildə ancaq söyüş söyməklə" öz tərbiyəsizliyini göstərməkdədir. Bu, onun ermənilər kimi özünü təsdiqləməsinin sübutu deyilmi?! L.Yunusun Azərbaycan xalqı və dövləti əleyhinə apardığı təbliğat kampaniyası ermənipərəst qüvvələrin ölkəmizə qarşı törətdiyi məkrli əməllərdən heç də fərqlənməyib. Həbsdən azad olunmasına görə, təşəkkürlər etmək əvəzinə, yenə də xarici havadarlarının istəklərini yerinə yetirməyə cəhdlər göstərir. Bir də pozucu əməllərini sifarişlə həyata keçirən şeytan cildində olan L.Yunusun Azərbaycan dövlətçiliyinə və ölkədə siyasi sabitliyi pozmağa çalışanların müdafiəsinə qalxması heç də təəccüb doğurmadı. Çünki hər iki tərəf şeytanla belə iş birliyi qurmaqdan çəkinməyən ünsürlərdir. Bu gün də L.Yunus yenidən "siyasi mübarizəyə" geri döndüyünü bəyan edərək, Gəncədə törədilən terrorda əli olanlara qahmar çıxır. Görürsünüz, məhz ölkə rəhbərliyinin bariz humanizm aktından yararlanaraq, azadlığa buraxılan zaman L.Yunus bu işdə xidməti olan tərəflərə ömrünün sonuna qədər minnətdar olduğu halda, yenə də hansı xislətdə olduğunu nümayiş etdirir. Çünki Leyla Yunus kimilərinin fəaliyyəti yalnız ermənipərəst dairələrin pulu qarşılığında nökərçilikdən ibarətdir. Bir də qozbeli qəbir də düzəldə bilməz. Bu yerdə beləsinə ay b... desən də, azdır.

**Rəfiqə HÜSEYNOVA**

# Qabil Hüseynli: "Ermənistan sarsaq prinsiplə hərəkət etməməlidir"



"Artıq Ermənistan politoloqu Stepan Safaryan da etiraf edir ki, NATO-nun Brüssel sammitinin yekun sənədində postsovet məkanında yaranmış bütün münaqişələrlə birlikdə Qarabağ münaqişəsinin ərazi bütövlüyünün təmin edilməsi çərçivəsində həll edilməsinin vacib sayılması Ermənistan üçün təhlükəlidir. Hətta mən deyərdim ki, təhlükəlidir ifadəsi çox yumşaq ifadədir. Bu, artıq beynəlxalq hüququn təməl prinsiplərindən birinə çevrilmiş müddəadır. Bu müddəadan kənara çıxmağa heç kimin haqqı olmayacaq". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

Onun sözlərinə görə, ATƏT-in əvvəlki sammitlərində müəyyən yanlışlıqlara yol verərək Azərbaycanın ərazi bütövlüyü məsələsinə müəyyən tərəddüdlər olmuşdu: "Artıq o tərəddüdlər 2013-cü ildən başlayaraq aradan götürülməyə başlanıb. Həm Avropa Birliyinin siyasi rəhbərliyi, həm də NATO-nun Zirvə toplantılarında Azərbaycanın ərazi bütövlüyü məsələsi birmənalı qaydada vurğulanmışdır. Bununla da beynəlxalq hüququn tələbi Azərbaycana da şamil edilməyə başlanmışdır. Qərb dövlətləri özlərinin tərəddüdlü mövqeyini ikili standartlarla da, eləcə də buna bənzər başqa düzməcələrlə yozmağa çalışsalar da, artıq bu mövqenin düzgün olmadığını başa düşüblər. Beləcə Azərbaycanın ərazi bütövlüyü məsələsində tərəddüdsüz mövqe tutmağa başlayıblar.

Zənnimcə, bu, həm ədalətin öz yerini tutmasına, həm də beynəlxalq hüququn təməl prinsiplərinin Sovet məkanındakı bütün münaqişəli ocaqlara tətbiq edilməsinə şərait yaradır. Ermənistan da bundan nəticə çıxarmalıdır. Ermənistan bu məsələdə sarsaq prinsiplə hərəkət etməməlidir. Onsuz da perspektivsiz olan işğalçı, təcavüzkar mövqeyindən imtina etməlidir və Azərbaycanın ərazi bütövlüyünün tanınması kimi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarında səsləndirilən və həyata keçirilməsini tələb edən müddəa ilə razılaşmalıdır. Azərbaycanın ərazi bütövlüyü mövqeyinin dünya miqyasında tanınması prosesi gedir. Bu prosesin alternativinin olmadığını artıq ermənilər də başa düşməlidir və özlərinin inkişafına mane olan indiki durumdan çıxmaq üçün ciddi kompromislərə getməyə özlərində hünər tapmalıdırlar".

## Bakıda "Dostluq körpüsü" II Beynəlxalq folklor rəqs festivalı başa çatıb

"Dostluq körpüsü" II Beynəlxalq Folklor-Rəqs Festivalına Mərdəkan Mədəniyyət Sarayında qala-konsertlə yekun vurulub. Festival Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə reallaşdırılıb. İdarədən AZƏRTAC-a bildirilib ki, festivala Azərbaycan ilə yanaşı, Rusiya Federasiyası, İran İslam Respublikası, İsrail, Moldova, Latviya və Gürcüstanın rəqs qrupları, ümumilikdə, 400-dən çox iştirakçı qatılıb. Festivalın təşkil olunmasında əsas məqsəd uşaq və gənclərin istedadlarının inkişaf etdirilməsi, ölkələrin mədəniyyətini nümayiş etdirməklə yanaşı xalqlar arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsidir. Mərdəkan Mədəniyyət Sarayında qala-konsert zamanı Şimali Osetiya və Vladiqafqazı təmsil edən "Sarmat", Rusiyanı təmsil edən "Slavyanski lik", Çeçenistanı təmsil edən "Zamankho", Azərbaycanı təmsil edən "Azad" və "Lalələr" rəqs qrupları çıxış ediblər. Tədbir tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

## Bu il ölkə üzrə 946,4 min kvadratmetr yeni yaşayış evləri istifadəyə verilib

Bu ilin birinci yarısında bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 946,4 min kvadratmetr və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9 faiz çox yeni yaşayış evləri tikilərək istifadəyə verilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanvar-iyun aylarında mənzil tikintisində istifadə edilmiş vəsaitin həcmi 463,8 milyon manat olub, onun 89,3 milyon manatı dövlət, 374,5 milyon manatı isə qeyri-dövlət mülkiyyətində olan müəssisə və təşkilatların, habelə əhalinin payına düşüb. Ölkə vətəndaşları mənzil şəraitlərinin yaxşılaşdırılması məqsədilə şəxsi vəsaitləri hesabına 6 min yaşayış evi tikiblər. Onların əksəriyyəti Naxçıvan Muxtar Respublikasında, Bakı və Sumqayıt şəhərlərində, Masallı, Tovuz, Qazax, Abşeron, Qəbələ, Şəmkir və Cəlilabad rayonlarında inşa edilib.

# “Müxalifətin” dırnaqarası “varlığı”

## *Yaxud 1993-cü ildən indiyədək biabırçı məğlubiyyətlərə uğrayan radikalların gerçək tarixi*

***Uzun illərdir dağıdıcı müxalifət qalmaqallarla gündəmdə qalmağa müxtəlif və çoxsaylı cəhdlər göstərir. Lakin fakt budur ki, xarici havadarları vasitəsilə müxtəlif siyasi oyunbazlıqları da radikallara heç bir siyasi üstünlük vermir. Əksinə, daxili didişmələr və qarşıdurmalar artır, ambisiyalar uğrunda savaşlar daha da şiddətlənir. Əslində, bu kimi halların digər səbəbi dağıdıcı müxalifət partiyalarında islahatların keçirilməməsi və partiyaların yeni təşəbbüslərlə çıxış etməməsidir. Bunun da nəticəsi olaraq, müxalif partiyalar öz elektoratını tamamilə itiriblər. Bəziləri də, artıq seçki kampaniyası aparmağa gücləri çatmadığına görə, hələ aprel seçkisi ərəfəsində bəyan edirdilər ki, güya seçkiləri boykot edirlər və s...***

### Siyasi savadsızlığın və səbatsızlığın reallığı



Nəticədə, yenə də rüsvay oldular. Onlar bununla etiraf etdilər ki, siyasi savadsızlıq və səbatsızlıq boylarına biçilmiş reallıqdır. Çünki seçkinin taleyini ayrı-ayrı partiyalar və şəxslər deyil, xalq müəyyənləşdirir. Daha bir fakt budur ki, tükənməyən və uzun illərə söykənən AXCP-Müsavat qarşıdurması müxalifətin parçalanmasını və zəif düşməsini şərtləndirən əsas amillərdəndir. Partiyadaxili savaşdan əlavə, bu iki partiya illərdir bir-birini sıradan çıxarmaqla məşğuldur. Mövzunun köhnəlmiş və çeynənmiş olmasına rəğmən, hər iki partiyanın rəhbərliyi hələ də qarşı tərəfi “satqın” ittihamı ilə atəşə tutur. Hər iki tərəf yenə də “satqınlıq” və “xəyanətkar” ittihamı səbəbindən qarşı-qarşıya dayanıb. Qısa tarixi ekskurs vasitəsilə 1998-ci il prezident seçkiləri dövrünə qayıdaq və xatırladaq ki, həmin ərəfələrdə müxalifət “SİDSUH” adlanan təşkilatda birləşmişdi. Lakin AXCP və Müsavat “vahid namizəd” məsələsində ümumi fikrə gələ bilmədi, nəticədə, qarşılıqlı ittihamlar ifrat həddə qədər inkişaf etdi. Nəhayət, biri digərinə güzəştə getməyən hər iki siyasi partiya bir-birini hakimiyyətə işləməkdə suçlayaraq, “boykot” taktikasını seçdi. Bununla da, “SİDSUH” adlı qurumun fəaliyyətinə son qoyulmuş olur.

“SİDSUH” - parçalanmanın əsasını qoyan “hərəkat” kimi müxalifətin rüsvayçılıq tarixinə yazıldı. “DUH”, “MKM”, “Demkonqres”, “Azadlıq”, “Bizim Azərbaycan” və digər seçki blokları, eləcə də, birlikləri də eyni aqibəti yaşadılar. Beləliklə, illər boyu bu düşmən və birbirilərinə patoloji nifrət edən parityaları son nəticə etibarilə guya “Milli Şura” bir araya gətirib çıxardı - dağılmış “İctimai Palata”dan sonra...

### Azər Həsrət: “Həmin adamların heç birisinin Milli Azadlıq Hərəkatında və demokratikləşmə hərəkatında heç bir rolu olmayıb”

Burada da uzun müddət duruş gətirə bilməyən Müsavat AXCP-ni Rusiyaya satılmaqda ittiham edərək, oradan uzaqlaşdı. Beləliklə, məsələ tamamilə aydındır. Guya zaman-zaman barışıq axtarışına çıxan hər iki partiyada təmsil olunanlar nəticə etibarilə daha betər düşmən tərəflərə çevrilirlər. Bu isə, sonu olmayan bir yola bənzəyir. Heç də təsadüfi deyil ki, 1993-cü ildən indiyədək keçirilən bütün seçkilərdə həmin qüvvələr biabırçı məğlubiyyətlərə uğrayıblar. Artıq məğlubiyyətləri ilə barışan AXCP-Müsavat başbilənləri Avropadan gələn ianənin azlığını nəzərə alıb, alver taktikalarını dəyişiblər. Yeni mühacir biznesinə girişiblər.

Bununla bağlı bir çox maraqlı fikirlər də səsləndirilib. Məsələn, hüquq müdafiəçisi Azər Həsrət mətbuata açıqlamasında deyib ki, dağıdıcı müxalifətin bu etiraz aksiyaları siyasi iddialarını təmin etmək üçün düşünülməyib. Onlar bununla mühacir biznesini genişləndirmək istəyirlər: “Çünki etiraz aksiyalarında yeni şəkillər çəkəcəklər və arayışlar alacaqlar. Birmənalı olaraq, deyirəm ki, müxalifətin bu etiraz aksiyaları xaricdən sığınacaq almaq üçün nəzərdə tutulub. Son vaxtlar xaricdə sığınacaq alıb, Azərbaycan dövlətçiliyinin əleyhinə çıxış edənlər haqqında araşdırma apardım. Məlum oldu ki, həmin adamların heç birisinin Milli Azadlıq Hərəkatında və demokratikləşmə hərəkatında heç bir rolu olmayıb. Heç kim də onları şəxsən tanımır. Amma onlar iddia edirlər ki, Azərbaycanda demokratikləşmə uğrunda gedən mübarizələrdə iştirak etdiklərinə görə sıxışdırılıblar və ona görə də, ölkədən qaçıblar. Bu kimi mitinqlər xaricdə sığınacaq almış həmin şəxslərin özlərinə yeni imkanlar yaratmaları üçün nəzərdə tutulub. Bunu mitinqin təşkilatçıları çox gözəl bilirlər. Onlar arayışları da pulla satırlar. Buna görə də, biznəslərini inkişaf etdirmək istəyirlər”.

Beləliklə, “müxalifətin” dırnaqarası “varlığı” olsa da, onun nə siyasi, nə sosial, nə də başqa məzmunlarda dövlətə və xalqa heç bir səmərəsi olmayıb, yoxdur və olmayacaq da. Hətta xarici havadarları belə, onlardan istədikləri qədər yararlana bilmirlər. Çünki belə dırnaqarası siyasi təşkilatlar həm də xalqdan təcrid olunmuşlardırlar. Xalq isə hakimiyyətin və dövlətin yanındadır. Məhz bu fakt radikalların siyasi ölüm prosesini sürətləndirir.

***Rövşən RƏSULOV***

# “Terrora qarşı mübarizə hamılıqla aparılmalıdır”

## *Əli Orucov: “Onlar üçün din kamuflyaj olunmaq üçün lazımdır”*



***Məlum olduğu kimi, Gəncə hadisələrindən sonra bəzi radikal dini cərəyanlar bir qədər də fəallaşıblar. Dağıdıcı xislətli radikal dini cərəyanlar AXCP, Müsavat və digər müxalifət partiyalarının informasiya dəstəyi göstərməsi onların fəaliyyətlərinin genişlənə biləcəyi ehtimalları yaradırdı. Ancaq hüquq-mühafizə orqanlarının gördükləri sərt və təsirli tədbirlər onların pozucu niyyətlərinin iflasa uğramasına gətirib çıxardı.***

AMİP funksioneri Əli Orucov “Səs” qəzetinə açıqlamasında terrora meyilli dini cərəyanların fəallaşmalarının heç də təsadüfi olmadığını və onların arxasında xarici maraqlı dairələrin dayandığının istisna edilmədiyini bildirdi: “Radikal dini cərəyanların aktivləşməsi ciddi təhlükədir. Çünki onlar hərtərəfli təlimlər keçmiş, hətta müəyyən döyüş təcrübəsi qazanmış “cihadçılar”dır. Onlar üçün din kamuflyaj olunmaq üçün lazımdır. Gəncədə polis zabitlərinə hücum hamımızı ayıq-sayıq olmağa vadar edir. Bunu radikal qruplaşmalar, adətən, insanlar arasında xof və qorxu yaratmaqla dövlətə təsir göstərməyə çalışaraq. öz maraqlarını diqtə edirlər. Təəssüflər olsun ki, digər bölgələrimizdə də təhlükələr ola bilər. Çünki görünən odur ki, belə qruplaşmalar uzun müddət səssiz-səmirsiz özlərinə yuva qurub, əmr və təlimatlar gözləyiblər. Ona görə də, operativ xidmət orqanları ilə bahəm vətəndaşlarımız da diqqətli olmalı, dövlətə lazımı dəstəyini göstərməlidir ki, təxribatçılar və terrorçular vaxtında ifşa olunaraq zərərsizləşdirilsinlər”.

“AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı və digər radikal müxalifət nümayəndələri ölkəmizin müxtəlif nöqtələrində baş verən hadisələrə dəstək xarakterli videoroliklər paylaşır və sosial şəbəkələrdə müraciətlər yayırlar. Demək olarmı ki, həmin radikal qruplaşmalara dəstəyi, həm də Müsavat və AXCP kimi partiyalar verir” sualına cavab olaraq, Ə.Orucov bildirdi ki, Azərbaycan hamımızın vətənidir və onu hər cür təhlükələrdən qorumaq hər bir kəsin müqəddəs borcudur: “Digər tərəfdən, terrordan heç kəs sığortalanmadığından, buna qarşı mübarizə hamılıqla aparılmalıdır. Radikal dini cərəyanlara hər hansı formada dəstək göstərən partiyalar varsa, bu, onlara heç də uğur gətirməz. Əksinə, uğursuzluğa və müvəffəqiyyətsizliyə düçar olarlar”.

***GÜLYANƏ***

# Bu ilin birinci yarısında 734 kiloqramdan artıq narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

Respublikanın daxili işlər orqanları cinayətkarlığa, o cümlədən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və kultivasiya yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkarlanması istiqamətində tədbirləri qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cari ilin birinci yarısında daxili işlər orqanları əməkdaşlarının bu istiqamətdə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 1708, o cümlədən satışla bağlı 525, narkotik xassəli bitkilərin qanunsuz kultivasiyası ilə əlaqədar 118 fakt müəyyən edilib.



Faktlar üzrə 734,4 kiloqram narkotik vasitə, o cümlədən 483,4 kiloqram marixuana, 157,9 kiloqram tiryək, 70,1 kiloqram heroin, 8,3 kiloqram həşiş, 14,6 kiloqram digər güclü təsiredici xüsusiyyətə malik narkotik vasitə, 1 ton 126 kiloqram narkotik tərkibli çətənə, 6,4 kiloqram xaş-xaş bitkiləri götürülərək qanunsuz dövriyyədən çıxarılıb. Həmçinin 2,2 kiloqram güclü təsiredici xüsusiyyətə malik, 1,4 kiloqram zəhərli və 334,5 qram psixotrop maddə aşkarlanaraq götürülüb. Xüsusi plan əsasında cari ilin mayında başlanılmış tədbirlərlə qanunsuz kultivasiya olunan və yabanı halda bitən 78,8 ton çətənə və xaş-xaş kolu məhv edilib.

### ABŞ S-400-lərə görə Türkiyəni hədələyib

Rusiyadan S-400-lərin satın alınması Türkiyə üçün ciddi nəticələrə gətirib, çıxaracaq. Axar.az xəbər verir ki, bu sözləri ABŞ Dövlət Departamentinin Siyasi və Hərbi işlər üzrə katibi Tina Kaidanou deyib. O bildirib ki, Ankara Rusiyanın müdafiə sistemlərinin alınması məsələsində daha da irəli gedərsə, sanksiyalar sadəcə başlanğıc olacaq: “Bu sistemlərin Rusiyadan alınmasına görə narahatıq. Dostlarımız və müttəfiqlərimiz bunun ciddi iş olduğunu anlamalıdır. Alış-veriş edərkən, bu məqamı nəzərdə saxlamalıdırlar”.



## Binəqədidə mənzildən qadın meyiti tapılıb

Bakı şəhərinin Binəqədi rayonunda 1 nəfər mənzildə bağlı qapı arxasında köməksiz vəziyyətdə qalıb. FHN-dən SİA-ya verilən məlumata görə, hadisə yerinə cəlb olunmuş Xüsusi Riskli Xilasetmə Xidmətinin müvafiq xilasetmə qüvvələri mənzilin giriş qapısını açıb və orada aşkarlanan 1961-ci il təvəllüdlü Quliyeva Sevinc Süleyman qızının meyitini aidiyyəti üzrə təhvil veriblər. Əməliyyat başa çatıb.

## Qəsdən adam öldürməkdə şübhəli bilinən şəxs saxlanılıb

İyulun 17-də saat 08:00 radələrində Pirallahı qəsəbəsində Mariya Qəhrəmanovanın meyitinin yaşadığı S.Bağırov küçəsi ev 14-də tapılması barədə daxil olmuş məlumatla əlaqədar dərhal polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. DİN Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, araşdırmalarla həmin gün saat 6 radələrində M.Qəhrəmanova ilə birgə yaşayan qohumu, əvvəllər məhkum olunmuş Rəsul Hüseynov arasında münaqişə baş verdiyi və sonuncunun onun baş nahiyəsinə yumruqla vuraraq qətlə yetirməsi müəyyən edilib. Faktla əlaqədar Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb. Görülmüş tədbirlərlə R.Hüseynov saxlanılaraq istintaqa təhvil verilib.

# Azərbaycanda insan hüquqları və azadlıqlarının qorunması sahəsində dövlət siyasəti: reallıqlar və perspektivlər

***Azərbaycan Respublikasının Prezidenti öz Fərmanı ilə müvafiq orqanlar və strukturlar qarşısında belə bir vəzifə də qoymuşdur ki, "Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası və onlara dəymiş zərərin ödənilməsi məqsədi ilə müvafiq beynəlxalq qurum və təşkilatlara müraciətlərin qəbul olunmasını təmin etsinlər". Azərbaycan Respublikası Təhsil Nazirliyinə isə "İnsan hüquqlarına dair beynəlxalq aktların öyrənilməsi məqsədi ilə respublikanın ali, orta ixtisas və orta məktəbləri üçün insan hüquq və azadlıqlarına dair dərsliklərin hazırlanmasını, olimpiadaların, müsabiqələrin, festivalların və digər tədbirlərin keçirilməsini təmin etmək tapşırılmışdır".***

Bütövlükdə, Azərbaycan Prezidentinin bu Fərmanında insan hüquqlarının qorunması sahəsində fəaliyyətin bütün istiqamətləri əhatə edilmişdir. Həmin aktın qəbul olunması ölkədə insan hüquqları və azadlıqlarının müdafiə və təmin edilməsi siyasətinin səmərəli həyata keçirilməsinə, müvafiq qurumların yaradılmasına təkan vermişdir.

Demokratiya yolu ilə inkişaf edən müasir Azərbaycan cəmiyyətində insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində müəyyən olunmuş tədbirlərin əsaslı və məqsədyönlü şəkildə həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə İnsan Hüquqlarının Müdafiəsinə dair Dövlət Proqramı təsdiq edilmişdir.

Ölkədə insan hüquq və azadlıqlarının qorunması sahəsində həyata keçirilən siyasətin istiqamətləndirilməsində Azərbaycan Prezidentinin "BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında" 16 aprel 1998-ci il, "İnsan Hüquqları üzrə Elmi-tədqiqat İnstitutunun yaradılması haqqında" 30 noyabr 1998-ci il tarixli, Azərbaycan Respublikasının hökuməti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu arasında qarşılıqlı anlaşma haqqında memoranduma əsasən razılaşdırılmış layihələr üzrə Azərbaycan Respublikası tərəfindən əlaqələndirici şəxs barədə sərəncamları da xüsusi əhəmiyyət kəsb etmişdi.

Azərbaycan dövlətinin insan hüquqlarının müdafiəsi və təmin olunması siyasəti çərçivəsində həyata keçirilən mühüm tədbirlərdən biri ölüm cəzasının ləğvi olmuşdur. Qeyd etmək lazımdır ki, ölüm hökmü Azərbaycanın Cinayət Məcəlləsində həmişə olmuşdur və statistikaya görə 1988-1993-cü illər ərzində 32 nəfər haqqında ölüm hökmü icra olunmuşdur. Onlardan 8 nəfər haqqında hökm 1993-cü ildə Prezident fərmanları əsasında icra edilmişdir. 1993-cü ilin iyun ayından isə ölkə rəhbərliyinə qayıtmış Heydər Əliyevin humanistlik siyasətinin bir təzahürü olaraq Azərbaycanda ölüm hökmünün icrasına faktiki moratorium qoyulmuşdur, bu müstəsna cəza növü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv edilmişdir.

Bu addım Azərbaycan dövlətinin humanist və demokratik mahiyyətini, ölkədə insan hüquqlarının qorunmasının necə böyük dəyər olduğunu bir daha təsdiq edir. Azərbaycanda insan və vətəndaş hüquqları və azadlıqlarının müdafiəsi, onların həyata keçirilməsinin təmin edilməsi, bu hüquqların pozulmasının qarşısının alınması istiqamətində aparılan dövlət siyasətinin həyata keçirilməsində icra hakimiyyəti orqanlarının üzərinə böyük vəzifələr düşür. Artıq qeyd etdiyimiz kimi, Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsi ilə digər hakimiyyət qolları ilə yanaşı, icra hakimiyyəti orqanları qarşısında konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqları və azadlıqlarını gözləmək və qorumaq vəzifəsi qoyulmuşdur. Həmin müddəaya müvafiq olaraq, Azərbaycan Respublikası Prezidentinin 16 iyun 1999-cu il tarixli Fərmanı ilə təsdiq olunmuş "Yerli icra hakimiyyətləri haqqında" Əsasnamənin 3-cü maddəsində yerli icra hakimiyyətləri başçılarının fəaliyyətinin əsas prinsipləri sırasında, ilk növbədə, vətəndaşların hüquq və azadlıqları və qanuni mənafelərinin müdafiəsi prinsipi təsbit edilmişdir.

Əsasnamənin 35-ci maddəsində icra hakimiyyəti başçılarının vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində aşağıdaka səlahiyyətləri müəyyən edilmişdir:

- səlahiyyətləri daxilində müvafiq ərazidə... vətəndaşların hüquq və azadlıqlarının müdafiə edilməsi üçün tədbirlər görmək;
- məhkəmə, prokurorluq və ədliyyə orqanlarına onların işində kömək etmək, onlardan müvafiq ərazidə ictimai asayişin qorunması, kriminogen vəziyyət, habelə vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunmasının təmin olunması haqqında məlumatlar almaq;
- qanunvericiliyə uyğun olaraq yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin keçirilməsi ilə əlaqədar məsələləri həll etmək;
- vətəndaşların qəbulunu, onların ərizə, təklif və şikayətlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə baxılmasını təşkil etmək, səlahiyyətləri daxilində onlara dair lazımi tədbirlər görmək, tabeliyində olan idarə, təşkilat və müəssisələrdə həmin işin təşkilinə nəzarəti həyata keçirmək və s. Bundan başqa, Əsasnamədə yerli icra hakimiyəti başçılarının vətəndaşların əmək, azad sahibkarlıq, istirahət, mənzil, sosial təminat, ekoloji, təhsil, tibbi yardım almaq və digər hüquqların müdafiəsi və təmin olunması sahəsində tədbirlərin görülməsi, bu istiqamətdə fəaliyyət göstərən müəssisələrin işinə nəzarətin həyata keçirilməsi səlahiyyətləri vardır.

Göründüyü kimi, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində yerli və həm də mərkəzi icra hakimiyyəti orqanlarının fəaliyyətində onların ərizə, təklif və şikayətlərinə baxılması xüsusi yer tutur ki, bu da Azərbaycan Konstitusiyasının 57-ci maddəsinə müvafiq olaraq, vətəndaşların dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və ya kollektiv yazılı müraciətlər göndərmək hüququnun reallaşmasına yönəlir. Konstitusiyanın bu maddəsi əsas götürülərək, onun həyata keçirilməsi ilə əlaqədar qəbul olunmuş müvafiq normativ - hüquqi sənədlər bu hüquqların təmin edilməsi formalarını müəyyən etmişlər. Bu baxımdan, 1997-ci ildə qəbul edilmiş "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu, həmin Qanunun tətbiqi haqqında Respublika Prezidentinin Fərmanı, bu Qanuna uyğun olaraq, 1998-ci ildə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrdə vətəndaşların təklif, ərizə və şikayətləri üzrə kargüzarlığın aparılması qaydalarını, 1999-cu ildə qəbul edilmiş "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu göstərmək olar. Qeyd olunan və digər müvafiq sənədlərdə icra hakimiyyəti orqanlarının bu sahədə vəzifələri, bu işin təkmilləşdirilməsi yolları müəyyən edilmişdir. Ölkədə dövlət qulluğunun təkmilləşdirilməsi istiqamətində qəbul olunan normativ sənədlərdə də - müvafiq qanunlarda və Prezidentin fərmanlarında da vətəndaşların müraciətlərinə diqqət və qayğı ilə yanaşılması dövlət qulluqçularının mühüm vəzifələrindən biri kimi irəli sürülür.

Beləliklə, Azərbaycanda vətəndaşların dövlət orqanlarına müraciət etmək hüququnun həyata keçirilməsi sahəsində aparılan siyasət sistemli və ardıcıl xarakter daşıyır. Bu da icra hakimiyyəti orqanlarının bu istiqamətdəki fəaliyyətinin getdikcə daha da yaxşılaşdırılmasına xidmət edir. Təkcə 2002-ci il ərzində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına vətəndaşlardan 54141 təklif, ərizə və şikayət daxil olmuşdur. Yerli icra hakimiyyəti başçılarının aparatına gəldikdə isə, 2002-ci ildə, məsələn, Goranboy rayonunda 665, Masallıda 540, Yardımlıda 403, Xanlarda 320 müraciət vətəndaşlardan daxil olmuşdur.

Milli dövlətlərdə insan hüquqları və azadlıqlarının məhkəmə müdafiəsi onların təmin edilməsi vasitələri və mexanizmləri arasında daha geniş yer tutur. Onun həyata keçirilməsi prinsipləri və formaları müxtəlif beynəlxalq - hüquqi aktlarda nəzərdə tutulmuşdur. Məsələn, Vətəndaş və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın (1996) 2-ci maddəsinin 3-cü bəndində gostərilir ki, hər bir iştirakçı - dövlət insan hüquqları və azadlıqlarının məhkəmə müdafiəsinin imkanlarının inkişaf etdirilməsini öz üzərinə götürür. İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 8-ci maddəsində xüsusi göstərilir ki, hər bir insan ona konstitusiya və ya qanunla verilmiş əsas hüquqların pozulduğu hallarda səlahiyyətli milli məhkəmələr vasitəsilə öz hüquqlarını səmərəli şəkildə bərpa etmək hüququna malikdir.

İnsan vətəndaş hüquqları və azadlıqlarının məhkəmə müdafiəsi dünyanın bir çox ölkələrinin konstitusiyalarında nəzərdə tutulur. ABŞ Konstitusiyasına 14-cü düzəliş ABŞ vətəndaşlarının həyatı, azadlığı və mülkiyyətinin müdafiəsinin təminatı kimi qanuni məhkəmə təhqiqatını nəzərdə tutur. İnsan hüquqlarının müdafiəsi və təmin edilməsi işində məhkəmələrin fundamental rolu Almaniya Federativ Respublikasının Əsas Qanununun 19-cu maddəsinin 4-cü bəndində nəzərdə tutulmuşdur.

Vətəndaş öz iradlarını əsaslandırmaq üçün həm milli, həm də beynəlxalq hüquq normalarına istinad edə bilər. Fərdin belə hüququdemokratik ölkələrin konstitusiyalarında təsbit olunan hamının tanıtdığı beynəlxalq hüquq prinsipləri və normalarının prioritetliyi haqqında müddəaya əsaslanır.

Azərbaycan Respublikasında son illər məhkəmə sistemində aparılan islahatlar hər bir insanın, vətəndaşın öz hüquqlarının bərpa olunması üçün bütün imkanlardan istifadə edilməsinə təminatın verilməsinə yönəldilmişdir. İnsan və vətəndaş hüquqlarının pozulması ilə əlaqədar mübahisələr yarandığı təqdirdə, onları məhkəmələr həll edir. Azərbaycan Respubilkası Konstitusiyasının 60-cı maddəsinə əsasən, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanının, siyasi partiyaların, ictimai birliklərin və ya vəzifəli şəxslərin qərar və hərəkətlərindən, yaxud hərəkətsizliyindən məhkəməyə şikayət edə bilər. Bu isə məhkəmələrin "tarazlama" sisteminə daxil olmasından irəli gəlir. Konstitusiyada təsbit edilmiş bu müddəa Azərbaycanda insan hüquqlarının müdafiəsi ilə əlaqədar beynəlxalq aktların tələblərinə əsaslanmaqla insan və vətəndaşların həm konstitusiyada, həm də digər qanunvericilik aktlarında təsbit olunmuş hüquq və azadlıqların məhkəmə müdafiəsi altında olduğunu göstərir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 19 iyul

## Bakcell-in 4G xidməti ölkənin 30-dan çox bölgəsində

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti daha çox abunəçisinin yüksək keyfiyyətli mobil rabitə xidmətlərindən yararlana bilməsi üçün 4G LTE əhatə dairəsini genişləndirir.




"Bakcell"in 4G xidməti artıq Bakı və Abşeron yarımadası, Gəncə şəhəri, Quba, Qusar, Xaçmaz, Şəki, Zaqatala, Qəbələ, Lənkəran, Mingəçevir, Şəmkir, Şirvan, Siyəzən rayonları daxil olmaqla ölkənin 30-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir. Şirkətin 2018-ci ilin ilk yarısında ölkə ərazisində quraşdırdığı 400-ə yaxın yeni baza stansiyasının 300-dən çoxu 4G-ni dəstəkləyir.

"Azərbaycan bazarında yüksək sürətli mobil internet xidmətlərinə olan tələbat və 4G texnologiyasını dəstəkləyən cihazların sayı əhəmiyyətli dərəcədə artmaqdadır və bunu nəzərə alaraq, şirkətimiz LTE xidmətlərinin əhatə dairəsinin ölkənin bölgələrində genişləndirilməsini də sürətlə həyata keçirməyə davam edir. Artıq Bakı, Abşeron və Gəncə sakinləri ilə yanaşı ölkənin 30-dan çox bölgəsində yaşayan müştərilərimiz Bakcell şirkətinin təqdim etdiyi ən yüksək keyfiyyətli və ultra-sürətli 4G internetindən yararlanmaq imkanına malikdirlər. Bakcell şirkəti öz şəbəkəsinə böyük həcmdə investisiya qoyuluşları sayəsində və dünya bazarında mövcud olan ən innovativ texnologiyaları tətbiq etməklə öz LTE şəbəkəsinin Azərbaycanın bölgələrində əhatəsini bundan sonra da genişləndirməyə davam edəcək", deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Qeyd edək ki, Bakcell Bakı metrosunda 4G xidmətini istifadəyə verən ilk mobil operatordur.

Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda "Best in Test" (sınaq nəticələrinə görə, ən yaxşı) adına layiq görülüb. 4G/LTE xidmətlərini daha çox abunəçi üçün əlçatan etmək məqsədilə Bakcell şirkəti 4G şəbəkənin əhatə dairəsinin genişləndirilməsi istiqamətində işləri davam etdirir.

## Diqqət! Günəş vannası sağalmaz xəstəliklərə yol aça bilər

Günəş şüalarının insan orqanizminə xeyirli təsiri olsa da, onu zərərli formada qəbul etmək də yolverilməzdir. Xezerxeber.az-ın məlumatına görə, saatlarla günəş vannası qəbul etmək dəridə gün yanıqları problemləri, eyni zamanda sağalmaz xəstəliklərə yol aça bilər. Gün yanıqları adətən yüngül və səthi olsa da, dermatoloqlar belə yanıqları çox təhlükəli hesab edirlər. Dermatoloqların sözlərinə görə, hətta bu yanıqlar dəri xərçəngi riskini də artırır. Həkim Bəxtiyar Paşayevin sözlərinə görə, günəş vannaları dərinin vaxtından tez qocalmasına və hətta dəridə sağalmaz xəstəliklərin əmələ gəlməsinə belə səbəb ola bilər. Odur ki, yay fəslində günəş şüalarını qəbul edərkən müəyyən nüanslara diqqət yetirmək lazımdır. Xüsusən də gün ərzində günəş vannalarını neçə saat və günün hansı saatlarında qəbul etməyi bilmək çox önəmlidir.

Saat 11-dən 4-dək günəş şüalarını qəbul etmək tövsiyə olunmur. Çünki bu zaman günəşin ultrabənövşəyi şüaları daha şiddətli olur və dəri daha çox mənfi təsirlərə məruz qalır. Günəş vannası qəbul etdikdə gün yanıqlarından qorunmaq üçün günəşdən qoruyucu kremlərin istifadəsi mütləqdir.

## Sərdar Ortaç Azərbaycana gəlir



Türkiyəli müğənni Sərdar Ortaç Bakıya gələcək. SİA-nın məlumatına görə, sənətçinin səfərinin məqsədi konsert verməkdir. Belə ki, Sərdar avqustun 3-də Bakıda dənizkənarı istirahət mərkəzlərindən birində çıxış edəcək. Ortaç mahnılarını gecənin qonaqları üçün canlı səsləndirəcək.

## Zidan "Yuventus"un idman direktoru olacaq



"Real Madrid"in sabiq baş məşqçisi Zinəddin Zidan İtaliyanın "Yuventus" klubunun idman direktoru olacaq. Zidanın İtaliya klubunda fəaliyyətə oktyabrda başlayacağı gözlənilir. "Real"ın portuqaliyalı hücumçusu Kriştianu Ronaldu da bu ay "Yuventus"a keçib.

Qeyd edək ki, Zidan "Real"ın baş məşqçisi postunu mayın 31-də öz istəyi ilə tərk edib. Madrid klubunun baş məşqçisi kimi Zidan üç dəfə Çempionlar Liqasının, iki dəfə UEFA Superkubokunun, iki dəfə klublararası dünya çempionatının, bir dəfə İspaniya çempionatının və İspaniya Superkubokunun qalibi olub.

## Güləşçilərimiz reytinq yarışlarına Türkiyədə hazırlaşırlar



Güləş üzrə yığma komandalarımız təqvim planında nəzərdə tutulan qrafik üzrə qarşıdan gələn reytinq xarakterli beynəlxalq turnirlərə hazırlığı davam etdirirlər. AZƏRTAC xəbər verir ki, yığma komandalarımız bu dəfə ki təlim-məşq toplanışını Türkiyədə keçirlər. Bu məqsədlə hər üç güləş növü üzrə yığmamızın üzvləri İstanbuldadır.

Ayın əvvəlindən qardaş ölkəyə yollanan yunan-Roma yığmamızın iştirak etdiyi təlim-məşq toplanışında Türkiyə ilə yanaşı, Hindistan, Qırğızıstan, Gürcüstan, Bolqarıstan, Estoniya, Litva, Ukrayna və Moldova komandaları da hazırlıq keçirlər. Yığmamızın üzvləri iyulun 20-22-də İstanbulda keçiriləcək Vehbi Emrenin xatirəsinə həsr olunan reytinq xarakterli beynəlxalq turnirdə qüvvələrini sınayacaqlar.

Sərbəst və qadın güləşi üzrə yığmamızın üzvləri də ötən həftədən İstanbulda təlim-məşq toplanışına başlayıblar. Sərbəst güləşçilərimiz Hindistan, Türkiyə, Belarus, Ukrayna və Tatarıstan komandaları ilə birgə hazırlıq keçirlər. Qadın güləşçilərin təlim-məşq toplanışında isə yığmamızla yanaşı Türkiyə və Hindistan komandaları da iştirak edirlər. Təlim-məşq toplanışı başa çatdıqdan sonra güləşçilərimiz iyulun 27-29-da İstanbulda keçiriləcək Yaşar Doğunun xatirəsinə həsr olunan reytinq xarakterli beynəlxalq turnirdə sınaqdan keçiriləcək.

## Ueyn Runi: "Messi tarixin ən yaxşı futbolçusudur"

Hazırda ABŞ-ın "DC Yunayted" klubunda çıxış edən Ueyn Runi maraqlı açıqlama verib. SİA-nın məlumatına görə, 32 yaşlı hücumçu "Barselona"nın ulduzu Lionel Messinin tarixin ən yaxşı futbolçusu olduğunu söyləyib. İngiltərə millisinin sabiq futbolçusu Messini yenicə "Yuventus"a transfer olunan Kriştiano Ronaldo ilə müqayisə edib: "Həm Messi, həm də Ronaldo güclü futbolçulardır. Lakin mən Messinin dünya futbol tarixinin ən yaxşı oyunçusu olduğunu düşünürəm". Runi Kriştianu Ronaldo ilə birlikdə 2004-2009-cu illər aralığında "Mançester Yunayted"in formasını geyinib.

## "Budapeştə ancaq qələbə üçün yollanırıq"

"Neftçi"nin hücumçusu Baqali Dabo UEFA Avropa Liqasının birinci təsnifat mərhələsində "Uypeşt" üzərində ilk oyun qələbəsinin (3:1) memarlarından biri oldu. Onun ilk qolu hesabı bərabərləşdirdi, ikinci qolu isə komandanı önə çıxardı. SİA-nın məlumatına görə, "Neftçi" PFK-ya bu yay transfer pəncərəsi çərçivəsində qoşulan Dabo, cavab oyunu ilə bağlı öz fikirlərini bildirib: "Təbii ki, qələbəyə görə şadıq. Hesabda geridə olsaq da, matçı çevirə bildik. Bilirəm ki, Budapeştdə bizə ikiqat ağır olacaq, amma buna hazırıq". Fransalı forvard həm də cavab oyununa hazırlığı dəyərləndirib: "Var gücümüzlə işləyirik. Budapeştə ancaq və ancaq qələbə üçün yollanırıq". "Uypeşt"ə qarşı "Neftçi"nin heyətində ilk rəsmi oyununa çıxan Dabo, komandada xoşbəxt olduğunu bildirib: "Özümü çox yaxşı hiss edirəm. Həm meydanda, həm meydanın kənarında uşaqlarla çox mehribanıq. İnanıram ki, gələcəkdə "Neftçi" üçün bundan daha da faydalı olacağam".

## İspaniya millisinin üzvü "Real"da!



"Real Sosyedad"ın futbolçusu Alvaro Odriosolanın "Real"a keçidi rəsmiləşib. Bu barədə Madrid klubunun saytı xəbər yayıb. 22 yaşlı müdafiəçi ilə 6 illik müqavilə imzalanıb. Qeyd edək ki, "Real Sosyedad"ın yetirməsi olan İspaniya millisinin üzvü ötən ildən əsas komandada çıxış edirdi.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500